

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 44 günlük müharibənin 26-cı günü: hər gün Qələbə



3

## Müdrik Lider, böyük strateq, qalib SƏRKƏRDƏ



8

İLHAM ƏLİYEV:
"Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik"

SƏS
№ 193 (6876)
21 oktyabr 2023-cü il.
Qiymət 60 qəpik

# Ukrayna, Koreya, yoxsa Qəzza?



*Nüvə düyməsi hansı regionun dağılması üçün basılacaq?*

4

## Qəzet oxumaq ənənəsi unudulur? - GƏNCLƏR ARASINDA SORĞU




7

## Ömür yolu dastana dönmüş Xudayar Yusifzadə




9

## Joze Mourinyo "Real"a qayıdır?



16

## Noyabrda ardıcıl 5 gün iş olmayacaq



16

## Ya qismət...



13

# Ölkəmizdə yol infrastrukturunun inkişafı üçün mühüm işlər görülür

## Prezident İlham Əliyev Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun açılışında iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun açılışında iştirak edib.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun təməli 2017-ci ilin dekabrında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı yolun təməlinin qoyulduğu ilk gündən başlayaraq inşaat prosesinin gedişi ilə şəxsən və yerində maraqlanıb, tikinti işlərinin ən yüksək standartlara uyğun icra olunması ilə bağlı vaxtaşırı tapşırıqlarını verib.

Bildirildi ki, ”Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq yeni avtomobil yolunun Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən başlayaraq Rusiya sərhədinədək olan 150 kilometrlik hissəsi birinci texniki dərəcəyə uyğun inşa edilib.

Magistralın 129 kilometrlik hissəsi ödənişli yol kimi müəyyənləşdirilib və Tarif Şurası tərəfindən gediş tarifləri təsdiq edilib. Gediş üçün ödənişin məbləği nəqliyyat vasitəsinin qət etdiyi məsafə, çəkisi və ay ərzində gedişlərin sayı nəzərə alınmaqla müəyyənləşdirilib. Ödənişli avtomobil yolu 4 zolaqlıdır.

Ödənişli yoldan istifadə tarifləri yeni müəyyən olunduğu üçün hazırda həmin tariflərin ödəniş sisteminə inteqrasiyası həyata keçirilir. İnteqrasiya yekunlaşdıqdan sonra ödəniş sisteminin proqram təminatı test ediləcək. Sınaqlar başa çatdıqdan sonra yol ümumi istifadəyə veriləcək. Qeyd olunan işlərin qısa müddət ərzində yekunlaşdırılması nəzərdə tutulur.

Diqqətə çatdırıldı ki, bu magistral yolun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin nəzarəti altında 5 hissə üzrə həyata keçirilib. Yolboyu 40 yol ötürücüsü və körpü, 52 alt keçid, 6 ödəmə və yükə nəzarət məntəqəsi, 2 mindən çox yol nişanı və məlumat lövhəsi quraşdırılıb. Həmçinin hər hansı maneənin yola çıxmasının qarşısını almaq üçün tədbirlər görülüb. O da bildirildi ki, yeni yol mövcud yoldan 13 kilometr qısadır. Dövlətimizin başçısı ödəmə sistemi haqqında videoçarxa baxdı.

Bildirildi ki, ödənişli yoldan istifadə xüsusi çip yerləşdirilən kart vasitəsilə həyata keçiriləcək. Bu kartı yolun giriş və çıxışlarından, yaxın gələcəkdə isə şəhər və rayonlarda müxtəlif satış nöqtələrindən əldə etmək mümkün olacaq.

Kartın 2 formada olması nəzərdə tutulub. Belə ki, yoldan daimi istifadə edən sürücülər daimi kart, vaxtaşırı istifadə edənlər isə müvəqqəti və ya birdəfəlik kart əldə edəcəklər.

Ödənişli yol sistemi sürücülərə adi və dayanmadan keçid zolaqlarından istifadə etmək imkanı verəcək. Adi zolağa daxil olan sürücü ödəniş məntəqələrində keçid üçün kartı əldə edərək avtomobilin ön şüşəsinə yerləşdirir və daha sonra ödənişli yoldan istifadə etmək hüququna sahib olur. Dayanmadan keçid zolağı isə sürücülərə ödəniş məntəqələrində sürəti azaltmadan və dayanmadan keçmək imkanı verir. Bunun üçün sürücüdə əvvəlcədən əldə edilmiş xüsusi çip kart və yetərli ödəniş balansının olması kifayətdir. Bu zolaqlarda xüsusi nömrə oxuma kameraları, təhlükəsizlik kameraları, avtomobilləri klassifikasiya etməyə imkan verən avadanlıqlar və digər innovativ texnoloji həllər tətbiq olunub, bütün məntəqələrdə çəkiyə nəzarət və yolun dayanıqlılığını təmin etmək məqsədilə elektron tərəzi sistemi də quraşdırılıb. Gələcəkdə avtomatik ödənişlər və ya QR kodları ilə mobil ödənişlər də mümkün olacaq. Ödənişli yoldan keçid kartının ilk nümunəsi Prezident İlham Əliyevə təqdim olundu.

Qeyd edək ki, son illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulub, həmçinin yeni avtomobil yolları, körpülər və yol ötürücüləri inşa edilərək əhalinin istifadəsinə verilib. Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun inşası ölkəmizdə yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində icra olunan işlərin davamlı xarakter aldığını göstərir.

Bu yolun istifadəyə verilməsi, həmçinin beynəlxalq nəqliyyat əməkdaşlığı baxımından strateji əhəmiyyət daşıyan Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin səmərəliliyini daha da artıracaq. Bundan başqa, yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, dəhlizlə yük və sərnişin daşımalarında əsas rol oynayacaq.









## Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin nümayəndəsini qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 20-də ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunda dövlət katibi köməkçisinin müavini Coşua Hakı qəbul edib. Görüşdə regionda sülhün və sabitliyin təmin edilməsi, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Azərbaycanın regional sülh gündəliyi, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsi və tezliklə imzalanması ilə bağlı niyyətini bir daha ifadə edib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# 44 günlük müharibənin 26-cı günü: hər gün Qələbə

Üç il əvvəl Azərbaycan ordusu qızğın döyüşlərdə haqq savaşında torpaqlarımızın işğaldan azad olunması uğrunda vuruşurdu. Sentyabrın 27-də başlanan Vətən müharibəsinin ilk günündən Azərbaycan xalqı qələbə xəbərlərini eşidir və tezliklə zəfərimizin qazanılacağı günün lap yaxında olduğuna inanırdı. Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu gücünü döyüş meydanında düşmənə göstərdi.

Azərbaycan öz torpaqlarını işğaldan azad etmək məqsədi ilə müharibəni davam etdirirdi. Hər gün torpaqlarımız geri alınırdı. Xalqımızın Ali Baş Komandan İlham Əliyev rəhbərliyi ilə Zəfərimizə inamı sonsuz idi. Həmin dövr ərizində Prezidentə ünvanlanan məktubların ardı-arası kəsilmirdi və bu məktubların hər birindən qələbə qoxusu gəlirdi. Vətəndaşlarımızdan biri belə yazırdı: "Çox hörmətli möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, müstəqil Azərbaycanın vətəndaşı olaraq daim Sizin "Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü ordusu var" şüarınıza inandıq. Yalnız bir çox halda səbirsizlik edirdik. Ancaq "nəyi nə vaxt və necə etməyi də" Sizdən yaxşı bilənin olmamasına inanırdıq. Nə yaxşı ki, müstəqil Azərbaycanın qurucularından olan bizim nəsil də sayənizdə bu xoşbəxt günləri gördü. Biz dövlətimizlə, liderimizlə, əvəzolunmaz və möhtəşəm tarix yazan sərkərdəmizlə fəxr edirik. Ərazi bütövlüyümüzün, milli kimliyimizin, şərəfimiz və ləyaqətimizin bərpasını təşkil və təmin edən bir lider əbədi olaraq xalqımızın rəhbəri, lideri kimi tarixə düşdü. Tam əminəm ki "İlhamla irəli"nin ən məsul və yaradıcı dövrü indi başlayır. Sizi və xalqımızı bu nailiyyətlər münasibətilə təbrik edirəm. Cəbhə bölgəsinə könüllü olaraq yollanan oğlum daxil olmaqla Allah bütün əsgər və zabitlərimizi qorusun, bizə zəfərlər nəsib etsin! Qələbə bizimlədir, Qarabağ Azərbaycandır!".

Cənab Prezidentin həmin günlərdə xalqa müraciətlərində hər gün ordumuzun daha da irəliləyərək, yeni kənd, qəsəbə və şəhərlərin azad olunması ilə bağlı məlumatları bizi doğma torpaqlarımıza daha da yaxınlaşdırırdı. "Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" 22 oktyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bu sözləri yazmışdır. Həmin günün qələbə dolu xəbərlərinin ardı-arası kəsilmirdi. "Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!". Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi "Twitter" səhifəsində bildirmişdir.

Əks-hücum əməliyyatlarının 26-cı günü - 2020-ci il oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsi işğaldan azad edildi. Zəngilan rayonunun Ağbənd qəsəbəsinin işğalçılardan azad edilməsi tarixi əhəmiyyətə malikdir. Azərbaycan üçün iqtisadi və siyasi əhəmiyyət daşıyan bu ərazinin işğaldan azad olunmasından artıq üç il ötür. Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də başlayan əks-hücumla qısa müddətdə artıq xeyli ərazini və yaşayış məntəqəsini erməni işğalından azad etmişdir. Araz çayı boyu da uğurlu əməliyyatlar keçirilib, düşmənin xeyli canlı qüvvəsi və texnikası məhv edilərək, ağır məğlubiyyətə uğradılmışdır. Azərbaycanın İranla 132 km-lik sərhəd ərazisi işğalçılardan tamamilə təmizlənmişdir. Ağbəndin işğaldan azad edilməsi ilə Azərbaycan 30 ildən sonra İranla sərhədini tam bərpa edərək nəzarətə götürməklə yanaşı, cənub-qərb istiqamətində Ermənistanla sərhədə çıxmış oldu. Hər gün qələbə sevincini yaşamaqda davam edirdik. Qeyd etdiyimiz ərazilərin tarixin bu günündə işğaldan azad olunmasının sevincini yaşayırdıq.

Əlbəttə ki, bu qələbələrimizi işğalçı "dövlət" həzm edə bilmirdi. Mülki insanlara açılan atəşlər, eləcə də müharibə getməyən ərazilərin atəşə tutulması erməni vəhşiliyini bir daha ortaya qoymuş oldu. 2020-ci ilin 10 oktyabr tarixi, saat 12.00-dan etibarən, humanitar məqsədlərlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi və onun kriteriyalarına uyğun olaraq, hərbi əsirlər və digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi üçün atəşkəs elan olunur. Bu hadisədən sonra işğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, habelə, elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla, yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutdu. Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çox mənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində 5 nəfər həlak oldu, 28 nəfər yaralandı, çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəydi. Prezident İlham Əliyev Yaponiyanın 2020-ci ilin oktyabrın 22-də "Nikkei" qəzetinə müsahibəsində "Bildiyiniz kimi, birinci atəşkəs cəhdindən sonra 24 saatdan az müddətdə onlar Ermənistan ərazisindən ballistik raketlə Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəyə hücum etdilər. Bu da hərbi cinayətdir və Ermənistan hökuməti buna görə məsuliyyət daşıyacaq. Beləliklə, onlar atəşkəsi pozublar. Mən həmişə demişəm ki, atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əgər bizə hücum olunursa, biz nəinki özümüzü müdafiə etməliyik, eyni zamanda, əks-hücuma da keçməliyik" - deyə bildirmişdi.

"Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Demək olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik" - deyə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva müsahibələrindən birində bildirmişdir. Bunun sadəcə, hərbi uğur olmadığını bildirən Birinci vitse-prezident tarixi ədalətin bərpası olduğunu qeyd etmişdir. "Çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır. Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini! Mən xalqın öz Prezidenti ətrafında necə sıx birləşdiyini, dövlət başçısının ümumi məqsəd naminə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə birləşməyə çağırışını gənclərimizin necə qətiyyətlə və mərdliklə qəbul etmələrini görürəm".

Ali Baş Komandan, Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi. 44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Azərbaycanın əldə etdiyi qələbə və apardığı hərbi əməliyyatlar həm texniki imkanlar, həm də operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur. Ölkə Prezidentinin dünyanın aparıcı mediasına verdiyi 30-dan artıq müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu.



***Zümrüd BAYRAMOVA***





## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il oktyabr ayının 20-də YAP Yevlax rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Yevlax rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda xatirə fotosu çəkdirilib.

# Ukrayna, Koreya, yoxsa Qəzza?

*Nüvə düyməsi hansı regionun dağılması üçün basılacaq?*



Dünyada müxtəlif səbəb və bəhanələrdən indiyədək sayı-hesabı bilinməyən müharibələr baş verib. Bu gün də Yer kürəsinin hansısa yerində silahların lüləsindən çıxan güllələr kiminsə həyatına son qoyur, top atışlarından, uzaqmənzilli raketlərdən neçə-neçə tikili bir neçə saniyə içində yerlə yeksan olur. Və bu hal hər gün yeni regionu ağuşuna alır, "qaynar nöqtə" statusunu alır. Amma dərin araşdırma aparmadan belə deyə bilərik ki, bütün bunlar, müharibələr, savaşlar əvvəlkitək torpaq ələ keçirmək, yeni ərazilər qazanmaq niyyəti ilə edilmir. Bu gün siyasət elə qurulub ki, müharibə aparmadan, zor tətbiq etmədən, hansısa dövlətə, onun ərazilərinə nəzarət edə bilərsən. Müasir dünyamızda iri dövlətlərin yeni düzənində, milli doktrinasında bu üsul geniş tətbiq edilir. Bütün bunlar bəllidir, amma başqa yol seçən dövlətlər də var.

Dünya insanı nüvə silahının nələrə qadir olması barədə ilk siqnalı 1945-ci ildə aldı. ABŞ guya Kvantun ordusunu durdurmaq üçün Yaponiyanın iki şəhərinə atom bombası atdı. Yüz minlərlə yaponiyalı bir göz qırpımında yanıb külə döndü, hər iki şəhər xarabalığa çevrildi. Ölənlərin əksəriyyəti dinc sakin idi. Sadəcə, Vaşinqton döyüşü mülki vətəndaşların yaşadığı, döyüş bölgələrindən uzaqda yerləşən şəhərlərə daşımaqla Yaponiyaya göz dağı verdi, məsələnin ciddiliyini, nəyə qadir olduğunu və nələri edə biləcəyini anlatdı. Yeri gəlmişkən, bu qeyri-sivil, qeyri-insani yanaşma günümüzdə baş verən müharibə və hərbi toqquşmalarda da tətbiq edilir. Yadınızdadırsa Ermənistanın III prezidenti, bəbək qatili, azərbaycanlılara qarşı soyqırımı, vandalizm aktı törədən Serj Sarkisyan Xocalı faciəsi barədə danışarkən, "bəli, biz bunu etdik, azərbaycanlılara bizim nə qədər ciddi olduğumuzu anlatmaq üçün etdik", demişdi. Bu gün Ukraynada, Nigerdə, Malidə, Somalidə, Suriyada, Liviyada, Kəşmirdə və Yaxın Şərqdə aparılan müharibələrdə ən çox ziyan çəkən dinc əhalidir. Heç bir müharibə qanunları gözlənilmir. Hədəf də, müdafiə səddi də mülki vətəndaşların yaşadığı binalar və məkanlardır.





Dünya ölkələri ən dağıdıcı silah əldə etmək yarışına çıxıblar. Aparılan araşdırmalara görə, dünyada 14,995 ədəd nüvə silahı var. Hər ölkənin əlində olmayan bu silahlar olduqları ölkənin rəqiblərin ciddi qorxu içində saxlayır. Hazırda əlindəki nüvə silahının az olmasına rəğmən, ətrafına ən çox qorxu saçan ölkə Şimali Koreyadır. Rusiyanın (7000 nüvə bombası), ABŞ-ın (6800), Fransanın (300), Çinin (270), İngiltərənin (215), Pakistanın (140), Hindistanın (130), İsrailin (80), Şimali Koreyanın (60) əlində nüvə bombası olduğu barədə rəqəmlər var. Hazırda dünya üzərində nüvə silahı sınaqlarını uğurlu şəkildə tamamlamış 8 dövlət var.

## Nüvə - hücum, yoxsa müdafiə silahı?

Maraqlı sualdır, bu dövlətlər nüvə silahı yaradanda hansı məqsəd güdüblər, düşmənləri bəlli edə biliblərmi, yoxsa..? Məsələ hələ də qaranlıqdır. Nüvə dövlətləri bir neçə dəfə nüvə düyməsinə basmaq fürsəti əldə etsələr də, ən son anda bu faciədən qaça biliblər. 1945-ci ildən bəri nüvə silahlarının sayı artsa da, nüvə sınaqları müntəzəm keçirilsə də, heç bir müharibədə tətbiq olunmayıb. Karib böhranı zamanı əllər tətikdə idi, Həm SSRİ, həm də ABŞ birinci kimin düyməyə basacağı anını gözləyirdilər. Bu gün Rusiyanın Ukraynada apardığı müharibədə taktiki nüvə silahından, hətta istifadə edildiyi barədə təsdiq olunmamış məlumatlar dolaşırdı. Amma 7 mindən artıq nüvə başlığına sahib Rusiya "qırmızı xətt"lərdən danışsa da, qarşı tərəfi hədələsə də qırmızı düyməyə basmayıb.

Bu gün ən çox nüvə hədəsini eşitdiyimiz ölkə Şimali Koreyadır. Şimali Koreya ABŞ-ı qabaqlayıcı nüvə zərbəsi ilə hədələyir. KXDR Mərkəzi Teleqraf Agentliyinin (KCNA) materialında deyilir ki, ABŞ nüvə müharibəsi törətmək istəyir və bu məqsədlə özünün strateji bombardmançı təyyarələrini Koreya yarımadasına köçürür. Şimali Koreya buna cavab olaraq qabaqlayıcı nüvə zərbəsi endirməklə hədələyib. KCNA ABŞ-ın B-52 strateji bombardmançı təyyarəsinin Koreya yarımadasının cənubuna göndərilməsini, həmçinin ABŞ, Cənubi Koreya və Yaponiyanın hərbi hava qüvvələrinin planlaşdırılan birgə təlimlərini xatırladır. Məqalədə deyilir ki, bu, ABŞ-ın həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə bir küncə sıxışdırılmış, nüvə müharibəsini qızışdırmaq üçün qəsdən etdiyi manevrdir. KCNA yazır ki, "ABŞ-ın hegemon strategiyasını həyata keçirmək üçün avantürist siyasəti" Avropa və Yaxın Şərqdəki münaqişə və onun nəticələri səbəbindən iflasa uğrayır və ABŞ administrasiyasının xarici təsiri və statusu yeni ziddiyyətlər və münaqişələr səbəbindən böyük dövlətlər və onların müttəfiqləri arasında durmadan azalır".

Qeyd edilir ki, Birləşmiş Ştatlar Koreya yarımadasının qanuni olaraq müharibə vəziyyətində olduğunu bilir və "düşmən ərazisinə ötürülən strateji aktivlər" ilk məhv hədəfləri olacaq. Qabaqlayıcı tətbiq hüququnun ABŞ-ın monopoliyası olduğu dövr artıq başa çatıb. "ABŞ və Cənubi Koreya quldurları respublikamıza qarşı nüvə müharibəsi törətməklə hədələdikləri üçün bizim cavabımız da məqsədəuyğun olacaq. ABŞ-ın mümkün qədər tez başa düşməsi faydalı olardı ki, səhvlər nə qədər çox təkrarlanarsa, Amerika qitəsi üçün xaricdəki təhlükəli məqam bir o qədər yaxınlaşır. Ehtiyatsız addımın ardınca geri dönməz peşmançılıq gəlir", - materialda deyilir.

KXDR Xarici İşlər Nazirliyi ABŞ-ı Moskva və Pxenyana qarşı düşmən münasibətinə görə tənqid edib, həmçinin NATO-nu və ABŞ, Yaponiya və Cənubi Koreyanın alyansını xərçəng adlandırıb. Sentyabrın sonunda KXDR parlamenti konstitusiyaya ölkəyə hərbi nüvə proqramını inkişaf etdirmək hüququ verən düzəliş qəbul edib. Şimali Koreya lideri Kim Çen In bunu "güclü siyasi silah" adlandırıb. Keçən həftə Şimali Koreya Cənubi Koreyada ABŞ-ın təyyarədaşıyan gəmisinə hücum etməklə hədələyib.

## Gürcüstan da nüvə müharibəsinə hazırlaşır...

Gürcüstan hakimiyyəti regionda nüvə silahının mümkün istifadəsinə hazırlıq üçün tədbirlər görür. Bu barədə Gürcüstanın Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) rəhbəri Qriqol Liluaşvili parlamentdə qapalı dinləmələrdən sonra jurnalistlərə bildirib. "Mövcud çağırışlar regionda nüvə silahının istifadəsini istisna etmir, ona görə də biz ehtiyatlı və ağlabatan siyasət yürütməliyik", - deyən cənab Liluaşvili açıq şəkildə Gürcüstan və Rusiya arasındakı münasibətlərə, eləcə də Yaxın Şərqdəki vəziyyətə istinad edir.

Dövlət Təhlükəsizliyi Xidməti rəhbərinin sözlərinə görə, Gürcüstan hökuməti "nüvə müharibəsi zamanı xüsusi plan hazırlayıb" və bu plana əsasən, "hər bir idarə üçün cəlb olunacaq ssenari və fəaliyyət planı müəyyən edilib". Xüsusilə, Səhiyyə Nazirliyi nüvə müharibəsi zamanı əhali arasında paylanacaq "dərmanların siyahısını artıq tərtib edib" və zərərçəkənlərə təcili tibbi yardım alqoritmini də təyin edib. "Xoşbəxtlikdən və ya təəssüf ki, biz bu yaxınlarda baş verən COVID-19 pandemiyası zamanı belə işlərdə geniş təcrübə qazandıq", - Qriqol Liluaşvili xatırladıb. Eyni zamanda, o, Gürcüstana birbaşa nüvə zərbəsi endiriləcəyi təqdirdə "sığınacaqlar bizə kömək etməyəcək", buna görə də "həm ölkə daxilində, həm də xaricdə mötədil, praqmatik siyasət yürütmək lazım olduğunu" etiraf edib.

Ardı Səh. 5

# Ukrayna, Koreya, yoxsa Qəzza?

*Nüvə düyməsi hansı regionun dağılması üçün basılacaq?*

**Əvvəli Səh. 4**

Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev İsrail ilə Fələstin HƏMAS hərəkatı arasındakı müharibənin qlobal müharibəyə və ya "böyük nüvə güclərinin müdaxiləsi perspektivi ilə regional güclərin nüvə silahından istifadə etməsi ilə qısa bir münaqişəyə çevrilə biləcəyindən ehtiyat edir". O, Rusiya torpaqlarının bir hissəsi "ələ keçirilərsə" nüvə silahından istifadə edəcəyi ilə hədələyib.



na alternativ variantları müzakirə etdiyini açıqlayıb. Bu arada İsrailin HƏMAS-ı bitirmək vədləri qüvvədə qalır. Mütəxəssislər hesab edirlər ki, quru əməliyyatı olmadan bu, real deyil, ona görə də uzun və bir neçə cəbhədə müharibənin olacağını proqnozlaşdırırlar.

"İndi Qəzzanı uzaqdan görürsən, tezliklə içəridən də görəcəksən. Sifariş gələcək", - İsrailin müdafiə naziri Yoav Qalant Cənub Hərbi Dairəsinə səfəri zamanı yüksək rütbəli komandirlərə bildirib. İsrailin baş naziri Binyamin Netanyahu da eyni bölgədə olub və cümə axşamı günü hərbçilərin mənəvi durumunu yoxlamaq üçün Qəzza zolağı ilə həmsərhəd bölgələrə gedib. Bütün bunlar ABŞ prezidenti Co Baydenin Amerika və İsrail hərbçilərinin İsrailin təxminən iki həftədir Qəzza zolağında başlamağa vəd etdiyi quru əməliyyatına alternativləri müzakirə etdiyini elan etdikdən bir neçə saat sonra baş verib. Cənab Bayden İsrailə səfərinin sonunda danışıb, burada Benyamin Netanyahu ilə görüşüb, həmçinin müharibə dövrü kabinetinin (İsrailin baş naziri, həmçinin hazırkı və keçmiş müdafiə nazirləri Yoav Qalant və Benni Gantz da daxildir) iclasında iştirak edib.



## Qəzzada nüvə silahına ehtiyac varmı?

Yaxın Şərqdəki hazırkı durumu qiymətləndirmək olduqca çətindir. Hər kəs İsrailin güclü olduğunu, bütün üstünlüyün onun tərəfində olduğunu düşünə bilər. Amma nəzərə almaq lazımdır ki, həmas təkcə Qərbin elan etdiyi "terror təşkilatı" deyil. Ondan istifadə edən, onu dəstəkləyən, yeri gələndə onun içində olaraq kiminləsə haqq-hesab çürüdən tərəflər, dövlətlər, beynəlxalq çəkidə təşkilatlar var. Hələ silah tüccarlarını demirik. Bütün bu ehtimallarla yanaşı gəlin Fələstin-İsrail, yaxud HƏMAS-İsrail cəbhəsində nə baş verdiyini, son durumu aydınlaşdıraq. Bu savaşın sonu hara aparır? Nüvə silahının düyməsi basıla bilərmi? HƏMAS-ın nüvə silahı yoxdur, İsrailin də bu silaha müraciət etməsi inandırıcı deyil. Bəs kənar qüvvələr?

İsrail təxminən iki həftə əvvəl Fələstinin HƏMAS hərəkatı ilə müharibənin lap əvvəlindən elan etdiyi Qəzza zolağında quru əməliyyatının başlanmasını təxirə salır. İsrail mediası ehtiyatda olan bəzi əsgərlərin hər an öz bölmələrinə qayıtmağa hazır olmaları şərti ilə evlərinə buraxılmağa başladığını yazır. Bundan əlavə, ABŞ prezidenti Co Bayden İsrailə səfərindən sonra gözlənilmədən ABŞ ordusunun israilli həmkarları ilə quru əməliyyatı-



Prezident Baydenin bəyanatı gözlənilməz olub, çünki bundan əvvəl İsrailin informasiya məkanında Qəzza zolağında quru əməliyyatının tezliklə başlayacağına şübhə yox idi. İsrail hərbçiləri və siyasətçiləri son 13 gün ərzində bir dəfədən çox təkrar ediblər: onlar Fələstin HƏMAS hərəkatının Qəzza zolağında hakimiyyətinə son qoymaq və onun hərbi infrastrukturunu məhv etmək üçün hər şeyi edəcəklər. Mütəxəssislərin fikrincə, bunu yalnız hava zərbələrinin köməyi ilə etmək mümkün deyil. Belə ki, Ordunun Mərkəzi Dairəsinin keçmiş komandanı ehtiyatda olan general-mayor Qadi Şamni Kan REKA radiostansiyasına müsahibəsində deyib ki, lazım olan təkcə Qəzza zolağında quru əməliyyatı deyil, bu ərazinin tam silahsızlaşdırılmasıdır.

Bu məqsədə nail olmaq üçün İsrailin Misirlə Zolaq arasındakı əlaqəyə qayıtması lazımdır. Bu, Qəzza zolağına qaçaqmalçılıq yolu ilə silah və sursatın keçirilməsinin əsas yoludur. İsrail 2005-ci ildə Qəzza zolağından geri çəkilməsinin bir hissəsi olaraq ərazini tərk edib. Eyni zamanda, Haaretz qəzetinin siyasi müxbiri Yonatan Lis həmin verilişdə iddia edib ki, hərbi-siyasi kabinetdə Qəzza əhalisi arasında itkilərin miqyasını minimuma endirmək üçün İsrail hərbçiləri arasında HƏMAS-a hava hücumlarını məhdudlaşdırmağı təklif edən qüvvələr var.



## Ukraynaya 90 milyardlıq "yardım"

ABŞ prezidenti Co Bayden Ukraynadakı vəziyyət və Fələstin-İsrail münaqişəsi ilə bağlı xalqa müraciət edib. O, İsrail və Ukraynanın qalib gəlməsinin "Amerikanın milli təhlükəsizliyi üçün həyati əhəmiyyət daşıdığını" söyləyib. Baydenin sözlərinə görə, bu ölkələrə qarşı təcavüzün davam etməsinə icazə verilərsə, o zaman "münaqişə və xaos" dünyanın digər hissələrinə də keçə bilər. "Həmas və Putin fərqli təhlükələr yaradır. Amma onların ortaq cəhətləri var. Onlar qonşu demokratiyalarını tamamilə məhv etmək istəyirlər", - ABŞ prezidenti əmin olduğunu bildirib. ABŞ prezidenti oktyabrın 20-də Konqresə Ukrayna və İsrailə yardım üçün əlavə maliyyə vəsaitinin ayrılması ilə bağlı sorğu göndərəcəyini bildirib. O, dəqiq məbləğin adını çəkməyib. "Bu, nəsillər boyu Amerika təhlükəsizliyinə dividendlər ödəyəcək ağıllı bir investisiyadır", - Co Bayden deyib.

Qeyd edib ki, ABŞ Amerika ordusunun Rusiya ordusu ilə vuruşmasını istəmir. Lakin Rusiya Vaşinqtonun NATO müttəfiqlərinə hücum edərsə, Birləşmiş Ştatlar "NATO-nun hər qarışını" müdafiə edəcək. Bloomberg xəbər verir ki, Co Bayden Konqresdən Ukrayna, İsrail və Tayvana hərbi dəstək, habelə ABŞ sərhədlərinin qorunması üçün əlavə 100 milyard dollar istəyəcək. Oktyabrın 19-da Bayden Ukrayna prezidenti Vladimir Zelenskiyə zəng edərək Kiyevə gələcək hərbi yardımı müzakirə ediblər. Bu həftə Ukrayna ordusu Vaşinqtondan ATACMS taktiki raketləri alıb.

ABŞ İsrailə əvvəllər Ukraynaya göndərilməsi nəzərdə tutulan on minlərlə 155 mm-lik artilleriya mərmisi verməyi planlaşdırır. Söhbət ABŞ-ın ehtiyatlarından olan mərmilərdən gedir ki, onlar İsraildə ölkələr arasında razılaşma çərçivəsində saxlanılır. Bu barədə Amerikanın Axios nəşrinə İsrail rəsmiləri məlumat verib. Politico mənbələrə istinadən xəbər verir ki, Pentaqon əməkdaşlarına İsrailə təchizat yaratmaq üçün Amerikanın sursat ehtiyatlarını "daramaq" tapşırılıb.

Mənbənin sözlərinə görə, İsrail hərbçiləri Qəzza zolağında quru əməliyyatına, eləcə də Livanla sərhəddə "Hizbullah" qruplaşması ilə mümkün münaqişəyə hazırlaşmaq üçün Vaşinqtondan artilleriya mərmiləri istəyib. Axios həmçinin yazır ki, İsrailə tədarüklər Ukrayna hərbçilərinin Rusiyanın xüsusi əməliyyatı çərçivəsində döyüş əməliyyatları aparmaq qabiliyyətinə təsir etməyəcək. Oktyabrın 19-da İsrailin müdafiə naziri Yoav Qalant bildirib ki, tezliklə bu ölkə ordusunun (IDF) Qəzza zolağında quru əməliyyatına başlaması barədə əmr veriləcək. Ölkənin Milli Təhlükəsizlik Şurasının üzvü olan İsrailin İqtisadiyyat naziri Nir Barkat ABC News-a deyib ki, İsrail ordusuna ordu "hazır olduqda" Qəzza zolağına daxil olmaq əmri verilib. İki gün öncə Bloomberg agentliyi bildirib ki, ABŞ prezidenti Co Bayden tezliklə ABŞ Konqresindən Ukrayna, İsrail və Tayvana hərbi dəstək, habelə ABŞ sərhədinin qorunması üçün əlavə 100 milyard dollar istəmək niyyətindədir. Oktyabrın 15-də Co Bayden CBS telekanalına müsahibəsində deyib ki, Vaşinqtonun həm İsrailə, həm də Ukraynaya hərbi yardım göstərmək imkanı var.

Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyen bildirib ki, Avropa İttifaqı 2022-ci ilin fevralından Ukraynaya 90 milyard dollar yardım ayırıb. Bu məbləğin üçdə biri, yəni təxminən 27 milyard dolları hərbi yardımdır. "Biz artıq Ukraynaya təxminən 90 milyard dollar yardım köçürdük ki, bunun da 27 milyard dolları silah təchizatıdır. Beynəlxalq dəstək tarixində heç vaxt olmadığı qədər, biz Ukraynanın bütün ehtiyaclarını ödəmək üçün ABŞ və G7 tərəfdaşları ilə köməyimizi koordinasiya etməyə davam edirik", - deyə Hudson İnstitutunda çıxış edən Avropa Komissiyasının rəhbəri bildirib.

Eyni zamanda, Avropa diplomatiyasının rəhbəri Josep Borrell bildirib ki, Avropa İttifaqı Ukraynanın ABŞ-dan aldığı maliyyə yardımının itkisini qısa müddətdə kompensasiya edə bilməyəcək. Sentyabrda ABŞ Konqresi Ukraynaya yardımı nəzərdə tutmayan müvəqqəti büdcə qəbul edib. ABŞ hakimiyyəti Ukraynaya dəstək məsələsinə daha sonra baxacaqlarına söz verib.



Beləliklə, Qərb dünyası müharibələrin körüyünü basmaqda davam edir. İndiyədək müharibə tərəfdaşlarına göndərdiyi silahların effektsizliyindən bezən Avropa və ABŞ nüvə silahına əl ata bilərmi? Hər şeyə hazır olmalıyıq...

**V.VƏLİYEV**

# Heydər Əliyev siyasəti Azərbaycana möhtəşəm qələbə bəxş edib

## Laçın şəhərində "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib







**“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Laçın rayon təşkilatı oktyabr ayının 20-də tədbir keçirib.**

Laçın şəhərində baş tutan tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov Ümummilli Lider Heydər Əliyevin öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyət olduğunu deyib. Onun sözlərinə görə, Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər ərzində böhran həddində olan ölkəmiz dahi şəxsiyyətin fədakar əməyi, böyük zəhməti sayəsində tərəqqiyə doğru inamlı addımlayıb: "Ulu Öndər Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Bu gün Laçına qayıdış laçınlıların doğma yurd həsrətinə son qoyub. Laçın və laçınlılar gələcəyə böyük inamla və ümidlərlə baxırlar".

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov vurğulayıb ki, bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr edən Ulu Öndər Heydər Əliyev Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Təsadüfi deyil ki, Ulu Öndəri fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb. Ulu Öndər xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elşad Mirbəşir dövlətçiliyimizin qorunub saxlanması istiqamətində Heydər Əliyevin gərgin siyasi fəaliyyətindən söhbət açıb. O, Ulu Öndərin Vətən və millət üçün müstəsna işlər gördüyünü xatırladıb, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında onun fəaliyyətini qeyd edib: "İllər ötəcək, lakin Heydər Əliyevin müdrik dövlət xadimi, tarixi şəxsiyyət kimi əziz xatirəsi daim könüllərimizdə yaşayacaq".

YAP Veteranlar şurasının üzvü Vahid Novruzov Ulu Öndərin nəsillərə örnək olan həyat yolu, Azərbaycan dövlətinin möhkəmləndirilməsi və dünyada öz layiqli yerini tutması istiqamətində fəaliyyəto barədə çıxış edib. O, Ulu Öndərin Azərbaycanın tarixinə, mədəniyyətinə, elm və təhsilinə, eləcə də digər sahələrə verdiyi yüksək qiymətdən söz açıb. Qeyd olunub ki, Ulu Öndərin hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, milli-mənəvi inkişaf istiqamətində gördüyü işlər bütövlükdə müstəqilliyimizin möhkəmlənməsinə yönəlmişdir.

Milli Məclisin deputatı Mahir Abbaszadə qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın çoxəsrlik dövlətçilik ənənələrini qoruyan fenomenal şəxsiyyətdir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi böyük şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olub.

Laçın şəhər sakini Qəzənfər Hüseynov, Zabux kənd sakini, YAP Laçın rayon təşkilatı 43 saylı ərazi partiya təşkilatının sədri Mübariz Rüstəmov, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Laçın rayon şöbəsinin sədri Babək Aslanov çıxışlarında Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi nailiyyətlərdən, habelə torpaqlarımızın işğaldan azad edilməsindən, bu gün həmin ərazilərdə aparılan abadlıq-quruculuq işlərindən bəhs ediblər. Sonda fəal partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə bədii hissə ilə yekun vurulub.



# ”Paşinyan səhv yoldadır və söylədiyi fikirlər havadarlarının təhrikidir”

## *KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*

**“Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa Parlamentindəki çıxışı bir daha göstərir ki, o sülhün, əmin-amanlığın və Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasının tərəfdarı deyildir”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**



Komitə sədri xüsusilə vurğulayıb ki, bir tərəfdən sülh müqaviləsinin bağlanılmasından, Azərbaycanla münasibətlərin yaxşılaşdırılmasından söz açan Paşinyan xarici ölkələrə səfəri zamanı, sözsüz ki, dediklərinin hamısının üstündən xətt çəkir və yenidən anti-Azərbaycan mövqeyində olduğunu sübut edir.

”Paşinyan bu dəfə də öz ənənəsindən əl çəkmədi, Azərbaycanın, eləcə də Rusiyanın ünvanına yalan, qərəzli, böhtan xarakterli fikirlər söylədi. Paşinyan dəfələrlə ermənilərin dırnaqarası ”etnik təmizləmə”yə məruz qaldıqlarını dilə gətirdi və burada nəinki Azərbaycanı, eləcə də Rusiyanı günahlandırdı. Halbuki, Qarabağda yaşayan ermənilərə qarşı heç bir etnik təmizləmə, soyqırıcı, yaxud təzyiq tətbiq edilməmişdir. Onlar öz xoşları ilə ərazilərimizi tərk etmişlər və bunu da bir çoxları öz müsahibələrində açıq-aydın bildirmişlər. Bildirmişlər ki, Qarabağda mövcud olan separatçılar onları yaşadıqları evlərindən çıxmağa məcbur ediblər, bir qorxu, təlaş kampaniyası həyata keçiriblər və ona görə də onlar öz razılıqları ilə həmin əraziləri tərk edirlər. Bu barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də dəfələrlə öz fikrini bildirmiş və göstərmişdir ki, Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul edərək Azərbaycan qanunlarına riayət edərlərsə, ölkəmizin həmin ərazilərində sərbəst yaşaya bilərlər və beləliklə onların hüquqları, təhlükəsizliyi hərtərəfli təmin olunacaq və bir Azərbaycan vətəndaşı kimi onlar dövlətin qayğı və diqqətindən bəhrələnəcəklər. Ancaq təəssüflər olsun ki, ermənilər bunu qəbul etmədilər. Sözsüz ki, orada fəaliyyət göstərən o silahlı xuntanın, eləcə də separatçıların təkidi ilə onlar Qarabağı tərk ediblər. BMT-nin missiyası da Qarabağda olarkən, müşahidələr apararkən bunu müşahidə etmişlər və hətta bildirilmişdir ki, mülki əhaliyə, mülki obyektlərə heç bir ziyan dəyməmiş və buradan ermənilər könüllü şəkildə çıxıb getmişlər.

Paşinyanın Avropa Parlamentində söylədiyi fikirlər sözsüz ki, onun havadarlarının təhrikidir. Fransanın, eləcə də Avropa İttifaqının ermənipərəst qüvvələrinin sözü ilə erməni baş nazir bu fikirləri söyləyir və müəyyən məsələlərdə özünə haqq qazandırmaq, sülhün, əmin-amanlığın tərəfdarı olduğunu göstərmək üçün bu cəhdləri edir. Rusiya tərəfindən də Paşinyanın bu çıxışına münasibət bildirilmiş və Rusiya Ermənistanın baş nazirinin çıxışını məsuliyyətsizlik və təxribatçılıq kimi dəyərləndirmişdir. Bu, həqiqətdir və doğrudan da, Paşinyanın tutduğu yol səhv yoldur. O, havadarlarının təkidi ilə bu fikirləri söyləməklə sülh bağlamaq fikirlərindən uzaqdır və sözsüz ki, o fikirlər tutulan bu yol Ermənistanı daha böyük uçurumlara aparır. Çünki bu gün Qərb, nə də Fransa, Avropanın bir çox ölkələri Ermənistanı müdafiə etmək fikrində yox, Cənubi Qafqazda öz mövqelərini möhkəmləndirmək fikrindədirlər və bir kart kimi Ermənistandan, onun baş nazirindən istifadə edib özlərinin mənafeləri üçün belə bir şərait yaradır, məkirli niyyətlər həyata keçirmək istəyirlər. Nə qədər gec deyil Paşinyan fikirləşməlidir, çünki Azərbaycan qüdrətli bir dövlət kimi beynəlxalq aləmdə dəstəklənir və haqqın, ədalətin, beynəlxalq normaların əsasları üzərində öz fəaliyyətini, mübarizəsini qurur və bu mübarizədə heç bir dövlət Azərbaycana özünün fikirlərini diktə edərək qəbul etdirə bilməz", - deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Qəzet oxumaq ənənəsi unudulur? - GƏNCLƏR ARASINDA SORĞU




***Kütləvi İnformasiya Vasitələri həyatımızın ayrılmaz parçasıdır. Belə ki, biz qəzet, televiziya, radio, sayt, jurnal və digər KİV-ləri izləyərək ölkədə və dünyada gündəlik baş verən hadisələr barədə ətraflı məlumat alırıq. Bəs, müasir gənclik gündəlik informasiyanı haradan əldə edir? KİV-in aparıcı vasitələrindən olan qəzetləri daha oxunaqlı etmək üçün nə etməliyik? Ümumiyyətlə, qəzet oxumaq ənənəsi unudulurmu? SİA mövzu ilə bağlı gənclər arasında sorğu edərək bu barədə onların fikirlərini öyrənib.***

**Miqrasiya könüllüsü Ramina İsmayılova:** "Qəzet oxuyuram. Məlumatları çap



məhsullardan almaq mənə daha maraqlı və yaddaqalan gəlir. Ən çox universitetmizdəki qəzetləri oxuyuram. Hər 2 həftədən bir yeni nəşri çıxır və onları ən birinci götürənlər sırasında oluram. Oxuduğum zaman kağızın qoxusu və materialı bir az da qəzəti tam oxumağa həvəs yaradır. Məhz buna görə qəzetlərin çapının davam etdirilməsini istəyərəm. Amma bunun mənfi cəhəti var ki, bu da təbiətə ziyan vurmasıdır. Bildiyimiz kimi, kağızların hazırlanmasına görə ağacların sayı azalır. Bu məsələ ilə bağlı tədbir görülsə, qəzetlərin çıxarılmasına heç bir problem qalmaz".

**Milli Debat Proqramının üzvü Yunis Məmmədli:** "Qəzetlər, cəmiyyətin müxtəlif




sahələrində baş verən hadisələr, iqtisadi və siyasi yeniliklər, mədəniyyət və idman hadisələri barədə gündəlik formada informasiya əldə etməyimizə səbəb olan unikal vasitədir. Müxtəlif debat oyunlarında komanda şəklində bəzən faktları təqdim etmək üçün qəzetlərdən istifadə etməli oluruq. İstər debat oyunları zamanı, istərsə də hər hansı debat mövzusuna hazırlaşarkən ən etibarlı mənbələrdən biri olan qəzetlərdəki məlumat və faktlara istinad edirik, onlar vasitəsilə araşdırma bacarıqlarımızı inkişaf etdiririk.

Düşünürəm ki, günümüzdə internetdə olan onlayn resurslardan əlavə, cəmiyyətin maariflənməsində və aktual xəbərlərin hər kəsə çatdırılmasında qəzetlərin müstəsna əhəmiyyəti var. Müxtəlif yaş qruplarının maraqlarının bir nöqtədə cəmləşdiyi azsaylı vasitələrdən biri elə məhz qəzetlərdir.

Bu səbəbdən də qəzetlərin bağlanması əlçatan resurslarımızın azalması demək olduğunu düşünürəm".

**"İRƏLİ" İctimai Birliyinin əməkdaşı Riad Cəbrayılov:** "Qəzetlərin günümüzdə geniş maraq dairəsinə nüfuz etdiyi, fikrimcə, olduqca zəifdir və bu da təbii bir haldır. Solğun və yorucu formatda çap olunmuş bəzi qəzetlərin şəxsi nümunədə mənim üçün heç bir marağı yoxdur. Ola bilər ki, qəzetlərin nəşr olunmasında da yaradıcılıq tələb olunmalıdır, fikrimcə, bu sahədə də müxtəlif irəliləyişlərə nail olmaq olar. Dünya təcrübəsində qəzetlərin oxunaqlılığının artırılması istiqamətində mütəmadi olaraq innovativ həllər üzərində işlənilir, xüsusi dizayn, rəs-



sam işi və redaktə baxımından oxucunun diqqətini cəlb etmək üçün xüsusi tədbirlər görülür.

Ümid edirəm ki, cəmiyyətimiz üçün də bu amillər keçərliliyi ilə qəzetlərimizin dəyişimi baş tutar. Qəzet hər birimiz üçün önəmlidir və fikrimcə, qəzetlərin müasir kreativ industriyanın tələb və şərtlərinə əsasən, yenidən formalaşması onların bağlanmasından daha çox aktual olmalıdır. Günümüzdə müxtəlif jurnallar ki, məhz qeyd olunan vizuallıqda olduqları üçün həm geniş oxucu kütləsinə təqdim olunur, həm də onun mahiyyəti olduqca rəqabətə davamlı olur".

**NAYORA könüllüsü Ələviyyə Oruczadə:** "Qəzet oxumuram. Çünki həm demək olar ki, satışda qəzetlərə rast gəlinmir, həm də istənilən məlumatları internetdən əldə



edə bilirik.

Ən son qəzet oxuyarkən ibtidai sinifdə təhsil alırdım. İndi isə magistr tələbəsiyəm. Atamın evdə futbol xəbərləri ilə bağlı saxladığı köhnə qəzetləri var idi. Mən də onları maraq üçün oxuyurdum. İndi isə onlayn jurnalları oxumağa üstünlük verirəm.

Günümüzdə o qədər də qəzet oxuyan insan olduğunu düşünmürəm. Qəzetlər çap olunacağı təqdirdə isə limitli sayda çapı daha məqsədə uyğundur. Bu da internetə çıxışı olmayanların istifadəsi üçün vacibdir. Ancaq indi 7-dən, 70-ə hər kəs sosial media istifadə etdiyi üçün hər kəsin internetə çıxışı var. Ucqar bölgələrdə yaşayan insanlar da meqabayt vasitəsilə internetə çıxışlarını təmin edirlər.

Məsələn, Vətən müharibəsi ərəfəsində insanlar ən doğru məlumatları həmin an Prezident İlham Əliyevin "tvet"lərindən öyrənirdi. Bir neçə dəqiqə ərzində məlumatları milyonlarla insan görə bilir. Qəzetlərdən isə məlumatları yalnız hadisənin səhəri və ya bir neçə gün sonra əldə edə bilirik. Bu səbəbdən sosial media düşünürəm ki, qəzetlərdən daha sürətlidir".

**Milli Debat Proqramının üzvü Firuzə Teymurova:** "Qəzetlər gündəmdəki xəbərləri, ümumilikdə cəmiyyət və dünya hadisələrini, baş verənləri özündə əks etdirir. İn-



sanlar qəzetlərdə yazılan tədqiqatlar, məqalələr, ədəbi işlər arasından öz maraqlarına uyğun yazılar tapırlar və bunun nəticəsində onların öyrənmə prosesi sürətlənir.

Qəzetlərin bir çox növü olsa da, mən aktual xəbərlərdən geri qalmamaq üçün gündəlik qəzetlər oxumağı sevirəm. Xüsusilə dünya mətbuatı məni daha çox cəlb edir. Qəzet deyəndə adətən insanların ağlına daha çox vərəqlərdə dərc olunan resurslar gəlir, lakin bununla yanaşı qəzetlər texnologiya dövrü ilə ayaqlaşaraq onlayn formada da dərc olunur. Mənim fikrimcə bu, əlçatanlıq baxımından çox əlverişli bir nüansdır.

Qeyd edim ki, mən illərdir ki debatla məşğul oluram. Debat turnirləri zamanı biz aktual məsələləri geniş araşdırıb, fakt şəklində hakimlərə təqdim edirik. Bəzən doğruluq payı olmayan xəbərlərin müxtəlif internet səhifələrində geniş yayılması bizə çətinlik verir. Elə bu zaman biz təsdiqlənmiş, doğruluq payına əmin olduğumuz qəzetlərə müraciət edirik".

**"İRƏLİ" İctimai Birliyinin əməkdaşı**



**Günel Qardaşova:** "Texnologiyanın hazırkı inkişafını nəzərə alaraq son zamanlarda, əsasən, virtual məqalələri və qəzetləri oxumağa üstünlük verirəm.

Ümumilikdə dəyərləndirdikdə, düşünürəm ki, qəzetlər ənənəvi medianın inkişafında kifayət qədər əhəmiyyətli rola sahibdirlər. Əlavə olaraq, material arxivlənmə üçün, bəzi insanların virtual araşdırılmaya nəzərən kağız arxivlərə üstünlük verdiyini nəzərə alaraq qəzetlərin çox önəmli olduğunu düşünürəm. Bu baxımdan, məncə, qəzetlər hər dövrdə lazımlı və faydalıdır".

**Miqrasiya könüllüsü Namiq Məmmədov:** "Qəzet oxumuram. Çünki qəzetdən oxuyacağımız xəbəri bir neçə saniyə ərzində internet, xəbər saytları yaxud sosial şəbəkələrdən əldə edə bilərəm. Fikrimcə, gü-



nü-gündən müasirləşən dövrümüzdə qəzetdən istifadə statistik olaraq azalır. Lakin bu kimi müxtəlif statistikalar qəzetin bağlanmasına gətirib çıxarmamalıdır. Yeni nəsil texnologiyalarla daha rahat və tez bir zamanda işləyə bilir. Bu kimi hallar əsasən yaşlılar üçün hər zaman keçərli olmaya bilər. Fikrimcə, internet qəzetin bütün funksiyalarını ələ keçirsə belə, yaşlı qrupları nəzərə alaraq qəzetin fəaliyyəti davam etdirilməlidir".

**NAYORA könüllüsü Əli Mehdizadə:** "Müasir dövrdə informasiyanı sosial şəbəkə və digər informasiya vasitələri sayəsində daha tez və asan şəkildə əldə etmək mümkündür. Doğrusu, indiyə qədər heç vaxt qəzet oxumamışam.

Qəzetlərin ləğv olunmasını əsla istəməzdim. Cəmiyyətdə telefon, planşet və digər müasir texnogiyalara öyrəşə bilməyən, hələ də onlardan istifadə etməkdə çətinlik çəkən yaşlı nəsil var. Onlar üçün qəzet əsas informasiya mənbələrindən biri olaraq qalır. Bu səbəblə hazırkı dövrdə qəzetlərin bağlanmasının yanlış olduğunu düşünürəm.



Daha öncə də qeyd etdiyim kimi, hazırda demək olar ki, yalnız yaşlı nəsil qəzet istifadə edir. Onlar yeni informasiyanı ya qəzetlə, televiziya vasitəsilə alırlar. Buna görə düşünürəm ki, qəzetlər populyar olmasa belə, cəmiyyətin bir hissəsi üçün aktuallığını hələ də qoruyub saxlayır. Onları günümüzdə faydalı saymaq olar".

***Ayşən Vəli***

# Müdrik Lider, böyük strateq, qalib SƏRKƏRDƏ

Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. 20 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 20 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb.

Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyasına nəzər salaq. Məhz bu



> İLHAM ƏLİYEV:
> "Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik"

konsepsiyanın əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu.Son ötən 20 illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciət edərə k bildirib ki, bu gün Silahlı qüvvələrimizlə fəxr edirik: "Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik".

Ali Baş Komandan İlham Əliyev müraciətində onu da bildirdi ki, bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır: "Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir". İkinci Qarabağ müharibəsindəki Qələbə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Artıq qələbəmizin üçüncü ilini də böyük uğurla başa vururuq. Böyük qürur hissi keçiririk ki, bu qələbə və uğurlar Azərbaycan Prezidenti, Ali baş Komandan İlham Əliyev tərəfindən son 20 il ərzində həyata keçirilən "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığının bütün dünyaya nümayiş etdirdi. Bu, həmdə bir daha nümayiş etdirdi ki, güclü, qüdrətli, yüz minlik ordunu heç kim dayandıra bilməz!

Bəli, sözü imzası qədər güclü olan lider, Ali Baş Komandan Prezident İlham Əliyev 44 gün davam edən İkinci Vətən müharibəsində nəyi, nə vaxt edəcəyini bildiyi üçün "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin nəticəsində bu qələbə qazanıldı. Çünki Qalib Sərkərdə, Prezident İlham Əliyev iqtisadi sahədə əldə etdiyimiz gücü Ordumuzun müasir texnologiyalarla təchiz edilməsinə və peşəkarlığının artırılmasına yönəltdi. Hərbçilərin mənzil-məişət şəraiti yaxşılaşdırıldı, hərbçilərimiz beynəlxalq təlimlərə qatıldılar. Son 20 il ərzində Prezident İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə bəyan edirdi ki, Ermənistan Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli prosesinə ciddi səy göstərməsə, Azərbaycan torpaqlarını müharibə yolu ilə geri qaytaracaq. Və bunu da etdi. 2020-ci il sentyabrın 27-də başladığımız 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev cənablarının "Dəmir yumruğu" düşmənlərimizi acı və tarixi məğlubiyyətə düçar etdi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyəti haqqında kapitulyasiya aktıdır. Bu Bəyanatı imzalamaqla Dağlıq Qarabağ ifadəsi gündəmdən çıxdı və Azərbaycanda belə bir ərazi vahidi artıq mövcud deyil.

## BİZİM ORDUMUZ ÖZ GÜCÜNÜ PARADDA YOX, DÖYÜŞ MEYDANINDA DA GÖSTƏRİB

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində onu da bildirib ki, Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır - həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən: "Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdirdiyimiz uşaqlardır"Prezident, Ali Baş Komandan İlham Əliyev çıxışlarında da dəfələrlə bildirmişdir ki, bu qələbə zamanında ordu sahəsində görülən işlərin nəticəsidir: "Ona görə biz güclü dövlət yaratmışıq, mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır. Bizim hazırlıq işlərinin aparılmasında əsas amil xalq-iqtidar birliyi olmuşdur. Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, bizim siyasətimizə böyük inam var. Müharibə və onun nəticələri bir daha Azərbaycan xalqını əmin etdi ki, bu inamı bizə Azərbaycan xalqı bəxş etmişdir. Çünki nəyi demişiksə, onu da etmişik".Dövlət başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, biz cəsarət göstərdik, milli ruh nümayiş etdirdik və istədiyimizə nail olduq: "Bir daha demək istəyirəm ki, İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb. Azərbaycan bundan sonra müzəffər ölkə kimi yaşayacaq, Ermənistan bundan sonra məğlub edilmiş ölkə kimi yaşayacaq". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciətində bildirib ki, "onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır".Budur, dünyasəviyyəli, cəsarətli LİDER! Budur, xalqın Prezidenti olmaq! Budur, sözü imzası qədər dəyərli olan Lider. Və Ermənistanın alçaq əməlləri Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz!: "Heç kim bizi dayandıra bilməz!. Yüz minlik ordunu kim dayandıra bilər?... Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: "Dəmir yumruq" yenidədir, bunu heç kim unutmasın!".

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SON 20 İLDƏ ÜMUMMİLLİ LİDERİN İDEYALARININ İŞIĞINDA BÖYÜK İNKİŞAF YOLU KEÇİB

20 il öncə ulu öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" dediyi söz sadəcə, Heydər Əliyevin taleyüklü məsələləri inandığı bir insana həvalə etməsi deyildi. Burada dahi liderin uzaqgörənliyi də aydın sezilir. Ulu öndər Heydər Əliyevin 2003-cü ildə xalqa müraciətində əksini tapan bu fikirlər Prezident İlham Əliyevin son 20 ildə gördüyü işlərə, Azərbaycanın əldə etdiyi uğurlara, ən əsası bugünkü qələbəmizə bələdçilik edir: bugünkü qələbənin məntiqi əsası, bünövrəsi və onu yaradan fəlsəfə Heydər Əliyevin fəaliyyətinin məhsuludur. Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən Şəxsiyyət kimi, eyni zamanda, Müzəffər Liderlik adını əbədi olaraq tarixə yazdı. O, son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytardı, tarixi ədaləti bərpa etdi. Məhz bu tarixi həqiqətləri incələdikdən sonra vurğulaya bilərik ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ardıcıl, uğurlu siyasəti nəticəsində dövlətçilik ənənələrimiz yenidən dirçəldi və inkişaf etməyə başladı. Eyni zamanda, bu gün Azərbaycan dövləti Prezident İlham Əliyevin Liderliyi sayəsində dünyada qalibiyyət və zəfərlər yazan, öz gücü ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli ölkə olaraq tanınmaqdadır. Cənab İlham Əliyev sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədən saxlaya bilməz. O, siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Və bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanın yürütdüyü 30 illik işğalçılıq, talançılıq, varvarlıq, terrorçuluq siyasətini əməli şəkildə cəzalandırdı. Və Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşadan Azərbaycan xalqına müraciətində söylədiyi kimi: "Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport verildən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı".

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar.

Dövlətimizin başçısının imzaladığı sərəncamlarla 11365 nəfər "Füzulinin azad olunmasına görə", 11831 nəfər "Xocavəndin azad olunmasına görə", 3435 nəfər "Zəngilanın azad olunmasına görə", 10211 nəfər "Cəbrayılın azad olunmasına görə", 5867 nəfər "Qubadlının azad olunmasına görə", 5784 nəfər "Şuşanın azad olunmasına görə", 3522 nəfər "Ağdamın azad olunmasına görə", 4225 nəfər "Kəlbəcərin azad olunmasına görə", 2643 nəfər "Laçının azad olunmasına görə", 10647 nəfər "Suqovuşanın azad olunmasına görə", 731 nəfər "Vətən uğrunda", 616 nəfər "İgidliyə görə", 2893 nəfər "Cəsur döyüşçü", 786 nəfər "Döyüşdə fərqlənməyə görə", 1743 isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif ediliblər. Azərbaycan Prezidentin digər Sərəncamı ilə 2 nəfər "Qarabağ", 28 hərbçi "Azərbaycan Bayrağı", 13 nəfər 3-cü dərəcəli "Rəşadət", 7 nəfər isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunublar. Ümumilikdə təltif olunanların sayı 76 min 349 nəfərdir.

Beləliklə, Prezident İlham Əliyev 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəflərə nail olunmaq üçün istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirdi və güclü dövlət konsepsiyasını reallaşdırmağa nail oldu. Qalib Sərkərdə Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi və bu zəfərlə yürütdüyü 20 illik - "Güclü ordu - güclü dövlət" strategiyasının və "Dəmir yumruq" siyasətinin siyasətinin doğru olduğunu Azərbaycana və beynəlxalq ictimaiyyətə sübut etdi. Və bu uğurların, qazanılan zəfərlərin arxasında xalq-ordu birliyi dayanır. Deməli, nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz. Çünki Azərbaycan Ordusu məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir.

**RƏFİQƏ KAMALQIZI**

# Ömür yolu dastana dönmüş Xudayar Yusifzadə




***Azərbaycanın son 30 ildə torpaqları şəhid qanı ilə suvarılıb. Şəhid qanı ilə suvarılan torpaq ən müqəddəs torpaqdır. Cadar-cadar olmuş torpaqlara nəfəs, can gəlir. Bu torpağa nə qədər şəhid qanı tökülüb. Yaşından asılı olmayaraq, bu torpaq uğrunda şəhid olub və ayaq qoyduğumuz hər qarışın müqəddəsliyini dərk etməliyik. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan odusunun rəşadətli qələbəsi şəhidlərimizin qanını yerdə qoymadı. Qisas qiyamətə qalmadı. Əlbəttə ki, canını vətən torpağının işğaldan azad olunması yolunda sipər edən vətən oğulları böyük igidlik, şücaət göstərərək, düşmənə qalib ölkənin ölümün gözünə dik baxan oğullarının vətənpərvərliyini göstərə bildilər. Hər bir insan üçün ən ali bir hissdir Vətən sevgisi, torpaq məhəbbəti.***

Vətənsiz millət, millətsiz isə Vətən ola bilməz. Bəli, Azərbaycanın bu torpağa, Vətənə Ana deyən övladları var. Elə 44 günlük Vətən müharibəsində şəhid olan minlərlə oğullarımız kimi. Adları dillərimizdə dastan olan igidlərimiz – şəhadətə qovuşan şəhid oğullar. Hər birinin həyatı bir hekayədir, dastandır. Qəhrəmanlıq dastanı.

**Dumanlı dağların başında durdum**
**Dumandan özümə bir xeymə qurdum.**
**Keçdi xəyalımdan öz gözəl yurdum**
**Dumanlar başında duman göründü**
**Duman göründü...**

Bu misralar səsləndikcə uzaq bir dünyaya boylanırsan. Sanki qeybdən gələn bir səsin sehrinə düşüb, vətən sevgisində yoğrulmuş bir dünya ilə baş-başa qalırsan - Xudayar dünyası ilə. 22 illik ömrünə üç il əvvəl vida deyərək, şəhid olan vətən oğlu. Şücaəti ilə adı əfsanələşdi. Belə bir Azərbaycanın qəhrəman oğlu bir neçə gün ərizində xalqının sevilən bir qəhrəmanına çevrildi. Hər kəsə nəsib olmayan şəhidlik zirvəsinə yüksəldi. "Vətən arzusuyla nəğmələr qoşdum, Tufanlar qarşımda dastana döndü", - deyə oxuyan Xudayarın od- alov, atəş içində ömrü dastana çevrildi. Şəhidliyi ömür payı olan Xudayarın döyüş yolu, göstərdiyi şücaət bu gün hər bir gəncə örnəkdir. Bu gün onun ömür yolunu vərəqləyirik: Xudayar Müslüm oğlu Yusifzadə. 15 iyul 1998-ci ildə Bərdə şəhərində dünyaya gəlib. Atası Bərdənin tanınan qarmon ustası Müslüm Yusifoğlu, anası - Rada Yusifzadə isə evdar xanım idi. Ailədə dörd uşaq olublar - üç qardaş və bir bacı. Tale elə gətirib ki. Xudayar Yusifzadənin doğumundan 24 gün sonra atası vəfat edib.

Xudayar Yusifzadə 2004-2015-ci illərdə Bərdə şəhərində Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində təhsil alıb. 2016-2018-ci illərdə Dövlət Təhlükəsizliyi Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Daha sonra isə o, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edib və "gizir" hərbi rütbəsi alıb.

2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra öz istəyi ilə Bərdə rayon Hərbi Komissarlığına müraciət edib. Gözünü dünyaya açan zaman məkan olaraq ilk gördüyü Vətən torpağı olan Xudayar məqam yetişən kimi onun yolunda ölümə belə hazır olduğunu könüllü olaraq ordu sıralarına yazılmaqla göstərdi. Vətən babalarımızdan, əcdadlarımızdan bizə qalan yurd yerimizdir. Əsgər isə Vətən əmanəti, yurd əmanətidir.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının giziri olan Xudayar 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edir, daha sonra isə Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xudayar Yusifzadə oktyabrın 22-də Zəngilan döyüşləri zamanı Ağbənd istiqamətində şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə orden və medallarla təltif olunub. Belə ki, Xudayar Yusifzadə ölümündən sonra "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Ölkəmizin hər bir yerində Vətən torpaqlarının azadlığı uğrunda canından keçmiş şəhidimizin xatirəsi uca tutulur. Azərbaycanda şəhidlik hörmət və ehtiramın ən ali məqamı səviyyəsinə ucalıb. Bu gün Bərdə şəhərinin Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində Xudayarın büstü qoyulub. İndi bu məktəbə gələn hər bir insan onun böyük bir məslək yolunda şəhid olduğunu biləcək və keçdiyi həyat yolu gələcək nəsil tərəfindən zaman-zaman öyrəniləcəkdir.

Qısa bir ömür yolunda ən ali zirvəyə yüksəldi. Şəhidlik zirvəsində xalqımız tərəfindən tanındı və sevildi. "Xudayar təsnifi" ilə fenomenə çevrildi. Sanki bu mahnıya yeni ömür caladı – şəhid Xudayar ömrü. Özü kimi mahnı da əfsanəviləşdi. Ölümündən 2 gün əvvəl Əliağa Vahidin "Vətən yaxşıdır" şeirinə yazılmış mahnını ifa etdi və ona yeni bir nəfəs verdi. Elə bir nəfəs ki, hər bir zaman dillərdikcə ruhları oyadacaqdır. Sanki mahnı yenidən yazıldı və mahnının sözləri böyük bir sevgisi ilə Vətən aşiqinin dili ilə yoğruldu. Hərdən insan təəccüblənir ki, illərlə ifa olunan bu təsnifin nəyə görə məzmununa bu qədər dərindən varmırdı. Səs, ifa, görkəm və ən sonda vətənə bağlı ömrün şəhadəti "Xudayar təsnifi"ni bizlərin qəlbində əbədiləşdirdi. Mahnı oxunanda insan ruhu başqa bir dünyaya qovuşur. Mahnıya "Xudayar təsnifi"nin verilməsi vətənin şəhid oğluna olan diqqət idi. Ona olan böyük sevgi idi. Xudayar adının bir musiqidə əbədiləşməsi idi. Xudayar Yusifzadənin ifasında "Vətən yaxşıdır" təsnifi yeni oranjemanda təqdim olundu. Əlbəttə ki, bir musiqidə deyil, bütöv bir xalqın qəlbində yuva qurdu Xudayar.

**Deyirlər bülbülə çəmən yaxşıdır**
**İnsançün laləzar vətən yaxşıdır.**
**Vahid, sorma vətən nədən yaxşıdır?**
**Adı gəlcək könlüm xəndan göründü**
**Xəndan göründü...**

Bəli, bu gün minlərlə şəhidimiz kimi Xudayarın da ruhu şaddır, xəndandır. İşğaldan azad olunan torpaqlarımızda tökdükləri qan ilə işğalda olan torpaqlarımızı azad etdilər. Bu gün qan ilə suvarılmış torpağımızda yeni fidanlar böyüyəcək. Torpağı sevəcək və Xudayar kimi oğulların davamçıları olacaqlar. Xudayar bir evin, bir obanın deyil, Azərbaycan övladıdır. Bu gün ölümündən üç il ötür. Ruhun şad olsun, Xudayar. Allah rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

## "Qərb bu qədər haqsızlıq etməsinə baxmayaraq yenə də Ermənistanı dəstəkləyir"



"Hər kəsə məlumdur ki, Ermənistan layihə bir dövlətdir. Cənubi Qafqazda Azərbaycan və Türkiyə arasında layihə olaraq yaradılıb. Əsas məqsəd türk dövlətlərinin birləşməsinə mane olmaqdır. Ermənistan da öz ağalarının onun qarşısına qoyduğu hədəfləri indiyədək "layiqincə" yerinə yetirməyə çalışıb. 44 günlük Vətən müharibəsi, həmçinin 23 saat 43 dəqiqəlik antiterror tədbirləri dünya ermənilіyinin belini sındırmış oldu". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Vüqar İskəndərov deyib.

Onun sözlərinə görə, yüzillərlə havadarlarının dəstəyi ilə var olan bu separatçı qrupun kökü demək olar ki, kəsilmək üzrədir: "Dünya erməniliyinin bu formada məyus olmasının səbəbi Azərbaycanın böyük oğlu, Ali Baş Komandan İlham Əliyevdir. Azərbaycan Prezidenti 100 ildən çox həsrətində qaldığımız qələbəni xalqımıza yaşatmış oldu. Bu gün də həmin ermənilər və onların havadarları yenə də öz xislətindədir. Qərb bu qədər haqsızlıq etməsinə baxmayaraq yenə də Ermənistanı dəstəkləyir. Təbii ki, bu heç bizi təəccübləndirmir".

Deputat sözlərinə davam edərək bildirib ki, Avropa Parlamentində olan bu məsələlər, boş kağız parçaları, mənasız bəyanatlar Azərbaycanı getdiyi yoldan döndərə bilməz: "Əksinə, bu, bizi daha da gücləndirir və qətiyyətli edir. Çünki biz onların xislətinə bələdik. İndiyədək verdikləri bəyanatların nəyə qulluq etdiyi bizə aydın olduğu üçün fikir bildirmək çox da çətin deyil. Biz bütün bunları selektiv yanaşma, ikiüzlülük və bəşəri dəyərlərə hörmətsizlik kimi qiymətləndirmişik. Rəsmi Bakı yenə də beynəlxalq hüququ rəhbər tutaraq öz yoluna davam edir və heç kim bu yoldan bizi çəkindirə bilməz".

***Ləman Sərraf***

## "Əli kimi adamabənzərlərdə vicdan yoxdu"

*MÜNASİBƏT*



"Əlinin depressiya keçirdiyini deyə bilmərəm. Çünki depressiya keçirmək üçün də gərək vicdan, ləyaqət ola. Əli kimi adamabənzərlərdə vicdan yoxdu". Bunu SİA-ya açıqlamasında "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov deyib.

Onun sözlərinə görə, el dilində desək, arsız adam depressiya keçirməz. İnsan nə qədər şərəfini ayaqlar altına ata bilər ki, düşmənin verdiyi pulla düşmənin dəyirmanına su töksün? Bunu bir az abırlı eləməyə də özlərində qabiliyyət tapa bilmirlər: "Açıq-aşkar, düşmənin və onun havadarlarının istəyini əks etdirən fikirlərini nümayişkaranə yayımlayır ki, bu da onun və onun kimilərin nə qədər millətinə kin bəslədiyinin bariz nümunəsidir. Baxın, İsrail kimi oturuşmuş, arxasında bütün Avropanın və ABŞ-nın dayandığı bir ölkə kiçik bir terror qruplaşması olan Həmasın qarşısında hansı duruma düşüb. Buna baxmayaraq Netanyahuya müxalif olan bütün qüvvələr bu gün onunla birlikdə hərəkət edirlər. Azərbaycan isə bütün Avropanın və Amerikanın dəstək verdiyi bir ölkənin iki yüz illik siyasətini alt-üst elədi, dünyanın heyrətini üstümüzə çəkdi, amma əlilər buna dodaq büzürlər. Dodaq büzmələri cəhənnəm, hər vəchlə bu tarixi qələbəmizi gözdən salmaq üçün dəridən-qabıqdan çıxırlar.

Beləsinə nə ad vermək olar? Ermənidən və ya erməniyə dəstək verən dünya güclərindən aldıqları maliyyə onların başlarını elə gicəlləndirib ki, bütöv bir millətin və bu milləti sevən yüz milyonların istək və arzularına daş atmaqdan belə çəkinmirlər. Zaman belə qınından çıxıb qınını bəyənməyənlərə yerini göstərir və göstərəcək. Buna kimsənin şübhəsi olmasın".

# Avropanın ikiüzlü siyasətinin arxasında dayanan maraqlar açıqlandıqca



“Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən müstəqil siyasəti və onun uğurları əksər hallarda ikili standartları ilə diqqətdə olan ölkələr və beynəlxalq qurumlar tərəfindən qısqanclıqla qarşılanıb və ölkəmizə qarşı qərəzli təbliğatla müşayiət olunub. Azərbaycan zaman-zaman bunu istər artıq tarixin arxivinə atılan keçmiş Qarabağ münaqişəsinin həllinə, istərsə də ölkəmizin demokratik inkişafına yanaşmada görüb. Amma reallıq budur ki, belə mövqe heç zaman Azərbaycan dövlətini ruhdan salmayıb, hər zaman tarixi həqiqətləri özündə əks etdirən təbliğatı, diplomatik uğurlarının davamlılığını təmin etməsi ilə diqqətdə olub. Bəzi dünya gücləri, beynəlxalq qurumlar hələ də başa düşmək istəmirlər ki, onların ikili standartlara əsaslanan siyasətləri həm ölkələr arasında vacib amil olan etimad mühitini sıfra endirir, həm də kiçik dövlətlərə keçməyə çalışdıqları ”ədalət və beynəlxalq hüquq” dərslərindən xəbərsiz olduqlarını sübut edirlər. Bu kimi hallar dünyanın bəzi aparıcı güclərinin ikiüzlü siyasətinin, riyakarlığının təqdimatıdır. Dövlət başçısı İlham Əliyev ən yüksək tribunalardan bütün çıxışlarında bu mühüm reallığı xüsusi vurğulayır ki, ölkəmizə qarşı beynəlxalq səviyyədə qərəzli kampaniyalar aparılır. Azərbaycan işğalçı kimi təqdim edilir, Ermənistan isə qurban kimi qələmə verilir. Otuz il davam edən işğalın tarixi, bütün şəhər və kəndlərimizin yerləyeksan edilməsi, Xocalı soyqırımı - bütün bunların hamısı, təbii ki, inkar edilir, tamamilə yalanla dolu hekayələr uydurulur.Təbii ki, Azərbaycanın diplomatik uğurları, tarixinin zəfər səhifələrini zənginləşdirməsi bu hekayələri sona yaxınlaşdırır. Buna əmin olmaq üçün tarixi Zəfərimizdən ötən 3 ildə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunması istiqamətində atdığı addımlara və onun uğurlu nəticələrinə diqqət yetirmək kifayətdir. Azərbaycan hər zaman olduğu kimi bu gün də sülh gündəliyinin, yeni əməkdaşlıq formatlarının müəllifidir.”

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.O qeyd edib ki, 30 illik işğal dövrünün davamı olaraq hazırkı postmünaqişə mərhələsində də bəzi dünya gücləri, beynəlxalq təşkilatlar regionda vəziyyəti gərginləşdirməkdə maraqlı olduqları üçün Ermənistanın sülh müqaviləsinin imzalanması prosesini uzatmasına dəstəklərini davam etdirirlər. Ölkəmizə qarşı daim qərəzli mövqeyi ilə fərqlənən Avropa Parlamentinin son addımları bunun bariz nümunəsidir. Bu bədnam qurum oktyabrın 5-də Fransa hökumətinin təhriki ilə Azərbaycan əleyhinə növbəti heç bir əsasa, ədalətə, beynəlxalq hüquqa sığmayan, adi kağız parçasından başqa bir şey olmayan qətnamə qəbul etdi. Təbii ki, bu sənəd qurumun qəbul etdiyi ilk qətnamə deyildi. Dövlət başçısı İlham Əliyevin bildirdiyi kimi, Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrin sayı yaddan çıxıb. Ola bilsin, 10-dan artıq qətnamədən söhbət gedir.YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, bu qətnamələrin hansı əsasda qəbul edildiyi məlumdur. Avropa Parlamentinin korrupsiya yuvası kimi tanınması bütün məqamlara aydınlıq gətirir. Bunun üçün təkcə ötən ilin dekabrında qurumda ortaya çıxan rüşvət qalmaqalını, Avropa Parlamentinin Yunanıstandan olan vitse-prezidenti Yeva Kaylinin milyonlarla dollarlıq korrupsiya cinayətində ittiham edilməsini yada salmaq kifayətdir. Korrupsiyalaşmış deputatlardan ibarət Avropa Parlamentindən ədaləti və beynəlxalq hüququ maraqlarına qurban verən istənilən addımı gözləyə bilərik. Oktyabrın 17-də Avropa Parlamentinin Ermənistanın baş naziri Nikol Paşinyana xüsusi münasibəti, onun qurumun iclasındakı çıxışında qeyri-ciddi bəyanatlar səsləndirməsinə geniş imkanlar yaratması da Avropanın ikiüzlü siyasətini bir daha ortaya qoydu.”

Vüqar Rəhimzadə vurğulayıb ki, bəzi dünya güclərinin atdığı belə qərəzli addımları əsasında sülh müqaviləsinin imzalanmasına mane olmaq dayanır. Ermənistanın baş nazirinin Avropa Parlamentinin tribunasından özünü ”sülh gündəliyinin müəllifi kimi” təqdim etməsi onun riyakarlığının göstəricisidir. Nikol Paşinyanın Avropa Parlamentinin sessiyasında səsləndirdiyi bəyanat növbəti dəfə bu ölkənin Azərbaycana qarşı absurd ittihamları davam etdirərək sülh sazişi ilə bağlı perspektivləri daha da sarsıtmaqda qərarlı olduğunu nümayiş etdirdi. Ərazilərimizi işğal altında saxladığı 30 ilə yaxın müddətdə bir milyona qədər azərbaycanlının hüquqlarını kobud surətdə pozan, azərbaycanlılara qarşı soyqırımı və kütləvi qırğınlar törədən təcavüzkar dövlətin Azərbaycanı könüllü olaraq Ermənistana getmiş yerli ermənilərin ”etnik təmizləmməsi”ndə ittiham etməsi Avropa Parlamenti kimi ədaləti və beynəlxalq hüququ ayaqlar altına atıb tapdalayan qurumların marionet ölkəyə dəstəklərinin nəticəsidir. Sülh müqaviləsini imzalamamaq üçün Azərbaycana qarşı qərəzli ittihamlarını davam etdirən Ermənistan 44 günlük İkinci Qarabağ müharibəsində, həmçinin birgünlük lokal antiterror tədbirlərində aldığı dərsi unutmamalıdır. Dövlətimizin başçısının oktyabrın 15-də Xankəndidə Azərbaycan Bayrağını ucaltdıqdan sonra xalqa müraciətində səsləndirdiyi ”Mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın” bəyanatı Ermənistana dəstək verən Avropa təsisatlarına da ciddi mesajdır.

YAP Xətai rayon təşkilatının sədri diqqəti Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın Avropa Parlamentində çıxışı zamanı səsləndirdiyi iddialara dair şərhində yer alan mühüm məqamlara yönəldərək bildirib ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, Azərbaycanın Qarabağ regionunda qondarma separatçı erməni rejiminin və qanunsuz silahlı qüvvələrin yaratdığı təhlükəni aradan qaldırdıqdan sonra Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün tarixi imkanların yarandığı bir dövrdə, Ermənistan baş nazirinin davam edən sərsəmləmələri sülh perspektivlərinə xələl gətirir.

## Avropalı ekspert:

## ”Strasburqda bir qrup yalançı digər yalançını alqışladı”

**Etiraf etmək lazımdır ki, Ermənistanın baş naziri Paşinyan tərəfindən avropalı parlamentarilər qarşısında böyük həvəslə ifa edilən Strasburq siyasi eskizi onlar tərəfindən böyük diqqət və bəyənmə ilə qarşılanıb. Yaxşı, başqa cür necə ola bilərdi ki, dövlət başçısı Qarabağda azərbaycanlıların ”törətdiyi dəhşətlərdən” ilhamla danışır. Daha dəqiq desək, bu ”qəddar” azərbaycanlıların bölgənin erməni əhalisinə qarşı nə ”etdikləri” haqda. ”Etnik təmizləmə”, ”blokada”, ”işğal” və digər qeyri-insani hərəkətlər- Paşinyan bütün gücü ilə qorxunc sözlərlə hoqqabazlıq edir, avropalıların göz yaşlarını sıxırdı. Uğurlarını möhkəmləndirmək üçün isə erməni lider həm Rusiya sülhməramlılarına, həm də Rusiyanın özünə qəzəbli tənqidlə hücum etdi...**



Avropalı siyasətçilər və politoloqlar Paşinyanın nağıllarından hansı nəticəyə gələ bilərlər və ya artıq çıxarıblar? Bakı bütün beynəlxalq qanunlara görə tamamilə qanuni olan hərəkətlərinin BMT kimi müxtəlif qlobal təşkilatlar tərəfindən qınanmasını gözləməlidirmi?

Siyasi Təhlil və İnformasiya Təhlükəsizliyi Mərkəzinin direktoru, Almaniya Xarici Siyasət Şurasının üzvü, Avrasiyada Strateji Tərəfdaşlıq üzrə Berlin Komitəsinin sədri Svyatoslav Andrianov Paşinyanın Strasburqdakı çıxışı ilə bağlı daha sərt danışıb.

O qeyd edib: ”Mən istəməzdim ki, erməni tərəfinin yüksək tribunalardan yaydığı yalanları bir daha təkzib edim, amma başqa çıxış yolu yoxdur. Qısaca deyim: Ermənistanın Naxçıvanla bağlı üzərinə götürdüyü öhdəliklər (Zəngəzur dəhlizinin açılması nəzərdə tutulur - red.) bir zərrə qədər də yerinə yetirilməyib. İrəvanın onları nə vaxtsa yerinə yetirəcəyinə dair heç bir əlamət yoxdur. Əksinə, Paşinyanın Avropa Parlamentindəki çıxışı bir daha göstərir ki, Bakı ilə münasibətlərin normallaşdırılmasında heç bir maraq yoxdur”, - ekspert hesab edir.

Onun sözlərinə görə, daha maraqlı sual Ermənistanın baş nazirinin niyə belə siyasət yürütməsi və bunun arxasında nəyin dayanmasıdır. ”Anlamaq nə qədər acınacaqlı olsa da, Paşinyanın siyasətinin məqsədinin Ermənistanla Rusiya arasında münasibətləri pozmaq, eləcə də respublikanın tamamilə Qərbin ”qanadı” altına çəkilməsi olduğu qiymətləndirmələrim növbəti dəfə təsdiqləndi.

Ona görə də mən bir sıra moskvalı ekspertlərin Paşinyanın çıxışının təkcə Azərbaycana deyil, həm də Rusiyaya münasibətdə sırf təxribat xarakterli olması fikri ilə razılaşmaya bilmərəm. Ümumiyyətlə, onun bu yolda hərəkətləri getdikcə daha çox Zelenskinin davranışını xatırladır və indiki Ermənistan-Rusiya münasibətləri getdikcə Kiyevdə qondarma Avromaydan başlamazdan əvvəlki vəziyyətə bənzəyir.

İnanıram ki, Paşinyanın analoji siyasəti davam edəcək və cəsarətlə təklif edirəm, bəlkə də yaxın gələcəkdə Ermənistan KTMT-yə üzvlüyünün məqsədəuyğunluğu məsələsini gündəmə gətirəcək”, - politoloq təklif edir.

Ermənistan hakimiyyətinin Rusiya ilə bağlı mövqeyi Brüsselin çox xoşuna gəlir və onlar Paşinyana ”xoş hədiyyələr” verməyə, onun seçdiyi kursu təşviq etməyə başlayırlar. Məsələn, oktyabrın 5-də Avropa Parlamenti Aİ ölkələrini Azərbaycan hökumətinin bir sıra üzvlərinə qarşı şəxsi sanksiyalar tətbiq etməyə çağıran qətnaməni böyük səs çoxluğu ilə təsdiqləyib- S.Adrianov qeyd edir.

”Digər məsələ odur ki, fikrimcə, bu, edilməyəcək, çünki bir tərəfdən Azərbaycan Avropa İttifaqı üçün daha mühüm rol oynayır. Digər tərəfdən, Avropa Parlamentinin qətnaməlari tövsiyə xarakteri daşıyır və Aİ Şurası və ya Avropa Komissiyası üçün məcburi deyil”,- rusiyalı politoloq xatırladır.

*Tərcümə - Elçin*

ŞƏRH

# “Qarabağ” dastanının ”Zəngilan” boyu

Kiçik Qafqaz dağlarının cənub tərəfində Arazboyu ərazidə sərt quruluşa malik sıldırımlı qayaları özünə məskən seçən Zəngilanımın əlindən alınmış əzəmətini qaytardı ona Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev, Milli Ordumuz. Hələ qədim dövrlərdən üzü bəri bağrından axan çayların əmələ gətirdiyi dərin dərələrdən, Oxçu və Bərgüşad çayları arasında füsunkar Süsən dağı silsiləsindən, bu silsilədən cənub-şərqə doğru enərək qarşıda uzanan ucsuz-bucaqsız Ağoyuq düzündən, şimal-şərqində Qarabağ silsiləsi və bu silsilənin getdikcə alçalaraq əmələ gətirdiyi Geyən çölündən, ümumilikdə bir füsunkarlıq abidəsi Zəngilandan düşmən ayağı kəsildi. Dünyada II, Avropada I nadir çinar meşələrindən neçəsinə köksündə yer verən çinarlar diyarı, dağ vüqarlı, çinar əzəmətli Zəngilanın hüriyyəti özünə qaytarıldı. Dağlıq hissələrində 1800-2000 metr hündürlükdə olan enliyarpaqlı meşələrindən aşağıya doğru endikcə subalp və alp çəmənlikləri ilə təbiətin özünün özünə meydan oxuduğu bir möcüzənin fonunda 20 oktyabr möcüzəsi baş verdi, Zəngilan azad oldu.



### 636-cı ilin şəhəri -Zəngilan








Azərbaycanın hər qarış torpağı tarixdir, qədimdir, əsrlərin o üzüdü. Elə Zəngilan da.. XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixinin 15-ci ilində, yəni 636-cı ildə qoyulub. Zəngilan şəhəri dedikdə, əslində Pircavan şəhəri nəzərdə tutulmalıdır. Çünki Zəngilan şəhərinin əsl adı Pircavan, yaxud da Pirçivan olmuşdur. Zəngilan isə həmin şəhərin və ətraf kəndlərin yerləşdiyi tarixi mahalın adı idi. Lakin sözün kökündə ”Pir” sözü olduğu üçün tariximizi təhrif etmək məqsədi ilə rayona 1930-cu ildə Zəngilan adı verilmişdir. İlk adı Pircavan olan bu şəhər isə yalnız 1957-ci ildən Zəngilan adlandırılmışdır və 1967-ci ildə hazırkı Zəngilan şəhərinə şəhər statusu verilmişdir.

Zəngilanın qədim Şərifan kəndində yerləşən Şəhri-Şərifan abidəsi, Məmmədbəyli türbəsi, XIV əsr Hacallı dairəvi bürcü, Yenikənd sərdabəsi, XVII - XVIII əsrlərə aid, Səfəvilər dövründə tikilməsi güman edilən Zəngilan şəhər məscidi, xalq arasında Qız qalası da adlandırılan Bartaz qız qalası, muzeyləri, Koroğlu daşının hər biri tarixin minilliklərindən xəbər verir, Zəngilanın qədimliyini təsdiqləyir. Zəngilan şəhəri 4 kilometrlik bir məsafədə Oxçu çayın sağ sahilində, Çeşməgözlü deyilən bir yerdən cənuba doğru ərazidə salınıb. Bu şəhərin özünün bir çox qədim məhəllələri vardır. Çeşməgözlü, Köhnə Pirçivan, Məscid düzü, Şaftalı dərəsi, Kirdəzir dərəsi, Bağırsaq dərə, Muncuqlu dərə, Çala dərə, Üst məhəllə... Hər biri bir tarixi yerlə, tarixi hadisə ilə bağlı məhəllələr...

### 27 illik həsrət

Sovet quruluşunun həyatımıza daxil olması ilə tariximizin təhrif olunması Zəngilanın da tale payı olmuşdur. Sovet quruluşunun bərqərar olduğu 70 ildə rayonun ərazi vahidində dəyişiklik olmuş, Zəngilan bir neçə dəfə Qubadlının, Qubadlı Zəngilanın tərkibinə daxil edilmişdir. Bu dəyişikliklərin heç biri Azərbaycanın tarixi əraziləri üçün bir mahiyyət kəsb etməsə də, imperiyanın gələcək planlarında özünəməxsus yer tutmuşdur. Elə 70 ilin sonlarında Zəngilanın da Qarabağ və digər rayonlarımız kimi işğalın qurbanına çevrilməsi də illərin işğalçılıq planlarının həyata keçirilməsinin vaxtının çatdığının göstəricisi idi. Bu plan 1993-cü ildə baş tutmuşdu. Günahsız insanlar öz dədə-baba yurdlarından zorla çıxarılmış, evləri dağıdılmış, ata-babalarının uyuduqları qəbiristanlıqlar məhv edilmişdir. Bölgənin bütün tarixi abidələri, məscidləri nankor ermənilərin qurbanlarına çevrilmişdir.

İnsan o zaman qədirbilən olur ki, onun kökü, xalqı, milləti ilə bağlı dəyərləri olur. Bu dəyərləri qorumaq isə özünün gözlərini qorumaq qədər vacib olur. Xalq yox, tayfa, millət yox azlıq, kök yox, yalançı gövdələrdən ibarət ermənilərdən, sözün həqiqi mənasında, bundan fərqli nə isə gözləmək də olmazdı. Nəticədə isə 27 il idi ki, zəngilanlılar yurd həsrəti ilə alışıb, yanırdılar. 27 il idi ki, onların yurd yerlərinin sakini yox, qonağı idilər: yuxularında Zəngilanda olmaqla, xəyallarında Zəngilanı qurmaqla... Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: ”Bizim məcburi köçkünlərimiz bütün bu illər ərzində bir arzu ilə yaşayıblar, baxmayaraq ki, onların bir çoxları üçün gözəl şərait yaradılıb və bildiyiniz kimi, təkcə bu il biz məcburi köçkünlər üçün 7 min mənzilin istifadəyə verilməsini nəzərdə tuturuq. 300 mindən çox məcburi köçkünə evlər, mənzillər verilibdir. Onlar bu qayğıya görə bizə minnətdarlıq edirlər və mənim onlarla çoxsaylı görüşlərimdə bunu ifadə edirdilər. Ancaq, eyni zamanda, mən bilirdim və onlar mənə deyirdilər ki, bizi qaytarın, öz torpağımıza qaytarın. Başa düşürdülər ki, bu, çətin məsələdir, başa düşürdülər ki, bunun üçün müəyyən geosiyasi şərait yetişməlidir. Mənə inanırdılar və mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq, mən deyirdim ki, bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır. Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik”.

### Bəylərin, ağaların şəhəri

Sovet dönəminin 70 ilinin başlanğıcında ”bolşevik hərəkatı”nın liderlərinin Azərbaycan bəylərini, ağaların düşmənə çevirib xalqa təqdim etmələrinə baxmayaraq tariximizin səhifələrində bəylərin, ağaların silinməz izləri var. Onların dövrün siyasi rəhbərləri kimi fəaliyyətləri, ictimai işlərdə fəallığı, məmləkətdə tikdirdikləri məktəblər, məscidlər, körpülər, saldıqları yollar və digərləri bu gün Azərbaycan tarixinin bir hissəsini təşkil edir. Zəngilan rayonunun ərazisi də ötən əsrin əvvəllərində əsasən bəylərin çəltik zəmilərindən və onların özlərinə məxsus yaşayış evlərindən ibarət idi. Bəylərin, ağaların vaxtilə bu yurd yerinin abadlaşmasında xidmətləri danılmazdır

### Bayrağın mübarək, azadlığın mübarək, Zəngilan!

2020-ci il oktyabr ayının 20-si bütün zəngilanlıların sanki yenidən dünyaya gəldikləri gündür, doğum günləridir. 27 illik həsrətin vüsal günüdür. Bu gün 27 il axıdılan göz yaşlarının sevinc göz yaşlarına çevrildiyi gündür. Tək zəngilanlılar üçün yox, bu gün bütün azərbaycanlılar üçün əziz və unudulmaz gündür. Çünki torpağımızın bir hissəsi, canımızın bir parçası, düşmən əlində olan övladımız azad olunub. Bu xəbəri xalqına verən insandan xoşbəxt insan varmı? Bu insan xoşbəxtliyi bütöv Azərbaycan qədər haqq edən Ali Baş Komandanımızdır. Cənab İlham Əliyevdən 3 il öncə tarixə yazılan yeni şad xəbər:

”İndi isə əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram.

Füzuli rayonu - azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.

Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.

Xocavənd rayonu - azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!”

Azadlığın mübarək, Zəngilan!

***Mətanət Məmmədova***

*P.S. Zəfərin 3-cü ilində Zəngilana nəzər salarkən onun ”ağıllı kəndi” Ağalısının artıq bir ildən artıqdır ki, sakinlərini qoynuna aldığını görmək çox qürurvericidir. Eyni zamanda Zəngilanda həyata keçirilən işlər-Beynəlxalq hava limanının tikilməsi, yolların salınması, şəhərin strateji əhəmiyyəti nəzərə alınaraq Baş planda Zəngilanın beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqəsi olan logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdirilməsinin nəzərdə tutulması, Baş planın konseptual əsasını ”rahat yaşayış”, ”yaşıl və təmiz”, ”mütərəqqi innovasiyalar” kimi şəhər yanaşmalarının təşkil etməsi, məscidlərin bərpası, bütün bunların fonunda isə ”Zəfər” və ”İşğal” muzeylərinin yaradılması yaşanan tarixin əbədiləşdirilməsi və Zəngilanın Zəngilana qaytarılmasıdır. Həyata keçirilən işlərin əsasında isə insan amili dayanır. O insan amili ki, dövlətimizin əsas prioritetidir.*

TƏHLİL+ANALİZ

# Müharibəsiz dünya quraq...

***Müharibə Bu, cəmi səkkiz hərfin birləşməsindən yaranan sadə bir söz deyil, səslənməsi ilə özündə dağıntıları, qırğınları, qanı, göz yaşını, ata-ana, övlad, nişanlı, sevgili itkisini, nisgili, kədəri ehtiva edən bir məfhumdur. Müharibənin ağırlığını onu yaşayanlar bilər. Gecənin qaranlığında yuxusunu bombardman səsləri pozanlar, bir anın içində evsiz-eşiksiz qalanlar bilər. Bu gün müharibənin acılarını yaşan Rusiya, Ukrayna, Fələstin, İsrail xalqı bilər. 3 il öncə biz bildiyimiz kimi...***

Müharibənin Vətəni yoxdur. O, harada baş verirsə, fərqli bir cəhəti olmur, eynilik təşkil edir. Bu səbəbdən də müharibənin nə olduğunu balasını müharibəyə göndərib yuxusu ərşə qalxanlar, sağ-salamat yola saldığı övladını şəhid kimi qoynuna alanlar bilər, ömrünün sonunadək qara yaylıq bağlayıb, gözləri yollarda balasını axtaran, yuxuları tək övladı olan analar bilər. Müharibənin nə olduğunu qəm-qüssədən üzündə qırış çığırları açılan, kədərdən beli bükülən atalar bilər. Atasından doymayan, ata adı gələndə gözləri qapılara dikilən, həsədi yalnız atalı yaşıdları olan uşaqlar bilər. Müharibənin nə olduğunu sevdiyi insanın nişanəsini onsuz dünyaya gətirən qadınlar bilər. Övladına müharibədə şəhid olan sevdiyinin adını verib onu hər çağırdığında ürəyi nisgildən şırımlanan analar bilər. Toy hazırlığı sevincini müharibənin əlindən aldığı, nişanlısını davaya yola salıb, onu şəhid kimi qarşılayaraq qara torpaqla paylaşan qızlar bilər. Toyundan cəmi bir-iki il ötən, bir üzü qız, bir üzü gəlin olanlar bilər.



### Müharibəyə məruz qalan xalq kimi...

Biz azərbaycanlılar keçmiş SSRİ, sonrakı MDB ölkələri arasında ən çox müharibəyə məruz qalan xalqıq. Qonşuluqdan kənar qonşumuzun başımıza açdığı bəlalar bütün dünyaya məlumdur. Dünya xalqlarından bizə qarşı törədilənləri pisləyənlər arasında illərdir ki, susanlar da olsa, lakin həqiqətin kimin tərəfində olduğunu çox gözəl bilirlər. Əsrlər boyu bu xalqa qarşı törədilən soyqırımları, haqsız, ədalətsiz müharibələri hələ demirəm. Tək son 30 ilə təsadüf edən müharibələr bizə yaxın tarix olduğu və gözlərimiz qarşısında acınacaqlı mənzərələri canlandırdığı üçün onlardan danışmaq istəyirəm.

Ermənilər tərəfindən 1988-ci ildən başlayaraq torpaqlarımıza qarşı irəli sürülən iddialar Birinci Qarabağ müharibəsinin dəhşətini yaşatdı xalqımıza. Torpaqlarımız bir-birinin ardınca işğal olundu. İllərlə ev tikib, yurd salan soydaşlarımız doğma torpaqlarından didərgin salındılar. Öz ata-baba ocağından zorla çıxarılanlar Azərbaycanın dörd bir yanına səpələndi. Onlar yurdlarını qoyub gəlmişdilər, nə əvəz edərdi yurdlarını onlara? Dədə-baba torpaqlarını, məzarlıqlarda əzizlərini qoyub gəlmişdilər, nə bu nisgilə su çiləyə bilərdi? Bar üstündə bağlarını, ruzi-bərəkətli torpaqlarını, evlərini qoyub gəlmişdilər, nə qarşılayardı bu acını? Onlar hara, hansı şəraitə gəlmişdilər? Azərbaycanın bugünkü gününə gəlməmişdilər, xeyr. Dövlətinin başında millətini əsla düşünməyən rəhbərlərin idarə etdikləri, iqtisadiyyatı tənəzzülə uğrayan, yoxsullaşmış vəziyyətdə olan ölkəmizə səpələnmişdilər. Nədən söhbət açım? İlk əvvəllər soydaşlarımızın yaşadığı evlərdənmi, oradakı şəraitin hansı vəziyyətdə olmasındanmı? Xanimanını qoyub çadır şəhərçiklərdə ömrünün illərinin üstünə il gətirməklərindənmi?

Ümummilli Liderimizin, daha sonra isə dövlətimizin başçısı Cənab İlham Əliyevin rəhbərliyi dövründə müstəqil ölkəmizin inkişafı ilə bərabər, bütün səylər qaçqın-köçkünlərin rifahına yönəldi, çadır şəhərçikləri tamamilə ləğv olundu, hər bir qaçqın mənzillə təmin olundu. Onların məşğulluğu diqqətdə saxlanıldı. Bütün problemləri vaxtında həll olundu. Ən başlıcası isə onların bir gün öz ata-baba yurdlarına qayıtmaları gündəmdə daim birinci məsələ oldu və bunun üçün əsaslı tədbirlər həyata keçirilməyə başlandı.

Axı dərd təkcə haradasa bir mənzildə yaşamaq, hərtərəfli təminat deyildi. Yuxarıda vurğuladığım müharibənin acılarını yaşamışdı bu insanlar. Tək onlar yox, bütün xalqımız. Minlərlə itkimiz vardı. Son qanınadək torpaqların müdafiəsində dayanan oğullarımız şəhid olmuşdular. Gəl, bir tərəfdən bu acıya döz, digər tərəfdənsə qoyub çıxdığın el-oba dərdinə. Gəl, Laçınsız, Kəlbəcərsiz, Zəngilansız, Şuşasız, Qubadlısız, Ağdamsız yaşa, görüm, necə yaşayırsan. Gəl, müharibənin əlindən aldığı bu torpaqların haylı-haraylı, toylu-büsatlı günlərini unut, görüm, necə unudursan. Doğmaların uyuyan o qəbirləri düşmənin əlində qoy, rahat yaşa, görüm, necə yaşayırsan? Gəl, həm canından qoparılan yurdunun, həm də minlərlə şəhidinin nisgilini bircə dəqiqə unut, görüm, necə unudursan

### Biz sülh istəyirik...

Düz 30 il, bu, az vaxt deyildi. Zamanın bir qərinəyə yaxın kəsiyi idi. Qaçqın-köçkünlərimiz nə qədər hərtərəfli qayğı ilə əhatə olunsalar da, axı onların canları o torpaqlarda idi. Nə vaxtsa yurdlarına qayıtmaq bu insanların tək arzusu idi. Müharibə istəmirdilər, yenidən fəlakət, qan görmək, şəhid qarşılamaq istəmirdilər. Lakin ocaqlarına yenidən qayıtmaqdan başqa istəkləri də yox idi. Bəs bu necə ola bilərdi? Məsələnin sülh yolu ilə həll olunması üçün istər Ümummilli Liderimiz Heydər Əliyev, istərsə də hər zaman "Biz sülh istəyirik, müharibə istəmirik",- deyən dövlətimizin başçısı uzun illər dünyaya çağırış etdi. Qarabağ məsələsinin dinc yolla həll olunması üçün illərlə beynəlxalq təşkilatlarla danışıqlar apardılar. Lakin danışıqlar heç bir nəticə vermədi. Çünki dünya ədalətsizlərdən xali deyil. Bəs Qarabağ düşmən əlində qala bilməzdi axı. Elə bu barədə Ulu Öndər deyirdi: "Təbiidir ki, biz Azərbaycanın suverenliyini bərpa edəcəyik. Torpaqlarımızın, ərazimizin bütövlüyünü bərpa edəcəyik. Amma hələlik, biz bunu sülh yolu ilə, beynəlxalq təşkilatların, ATƏT-in Minsk Qrupunun iştirakı ilə, onların köməyi ilə etmək istəyirik. Doğrudur, neçə illərdir ki, bu proses davam edir, danışıqlar gedir. Bu danışıqların əksəriyyəti mənim tərəfimdən aparılır. Mənim ətrafımda bu işlə məşğul olan vəzifəli şəxslər tərəfindən aparılır. Nəticə yoxdur. Amma bu, o demək deyildir ki, sülh danışıqlarının potensialı tükənibdir. Yox! Hələ var. Ona görə də biz yenidən müharibəyə başlamaq istəmirik. Biz istəmirik qan tökək. Başa düşürsünüzmü? Əgər bir şeyi sülh yolu ilə etmək olarsa, bir az da dözək, amma sülh yolu ilə həll edək. Ancaq həll edə bilməsək, təbiidir ki, biz torpaqlarımızı erməni işğalçılarının tapdağı altında qoya bilmərik. Biz onları mütləq azad edəcəyik. Nəyin bahasına olursa-olsun, hansı qüvvə ilə olursa-olsun, biz onları azad edəcəyik. Bunun üçün biz xalqımızın, vətəndaşlarımızın vətənpərvərlik hisslərini daha da gücləndirməliyik, artırmalıyıq".

### İkinci Qarabağ müharibəsi qaçılmaz idi

Lakin beynəlxalq təşkilatlar susdu. Ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliyə, başladığı müharibəyə, tökdüyü qanlara, minlərlə itkilərimizə, dağıdılan, yandırılan yurdlarımıza göz yumdu. İnsan haqlarına əhəmiyyət vermədi, insan amilinə sayğı duymadı. Biz müharibə istəmirdik. Lakin dövlətimizin başçısının da qeyd etdiyi kimi: "Deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi qaçılmaz idi. Bunu hər kəs bilirdi. Azərbaycan ictimaiyyəti də bilirdi, beynəlxalq vasitəçilər də bilirdi, biz də bilirdik. Sadəcə olaraq, ümidlər var idi ki, Ermənistan rəhbərliyində heç olmasa özünüqoruma instinkti özünü büruzə versin və onlar öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar. Əgər bu olsaydı, müharibəyə ehtiyac qalmazdı. Biz müharibə istəmirdik və bu gün də istəmirik. Hesab edirəm ki, müharibə riskini sıfra endirmək üçün bölgəmizdə, Cənubi Qafqazda müxtəlif təşəbbüslər irəli sürülməlidir. Biz buna hazırıq. Bizə müharibə lazım deyil ".

Bəli, biz İkinci Qarabağ müharibəsini də yaşamalı olduq. 2020-ci il sentyabr ayının 27-dən başlayaraq 44 gün Qarabağda qanlı-qadalı müharibə getdi. Yenə müharibəyə xas əlamətlər: fəlakətlər, dağıntılar, ölümlər, dinc əhalinin gözlənilməyən anda itkisi, hər gün cəbhədən gələn qara xəbərlər, hər gün yüzlərlə şəhid, qan qoxusu, göz yaşları, nalə, fəryad səsləri

Bax, budur müharibə. İstəmirdik, amma məcburduq. Bizi orada torpaqlarımız gözləyirdi, namusumuz, qeyrətimiz, mənəviyyatımız olan torpaqlarımız. Zəfər bizim oldu. Minlərlə şəhid versək də, minlərlə qazilərimiz olsa da, minlərlə dinc sakinimiz xəsarət alsa da, evləri dağılsa da, zəfər çaldıq. Çünki bu, haqq savaşı, haqq etdiyimiz zəfər idi.

Qayıtdıq Qarabağa, 30 il sonra qayıtdıq. Övladlarımız kimi şəhid Qarabağa qayıtdıq. 30 ildə dağıdılan, daşı daş üstə olmayan yurda qayıtdıq. Müharibənin fəlakətləri bax, budur. İzlədik, üzüldük Hanı o tarixi abidələrimiz, qədim məscid, pirlərimiz, məktəblərimiz, xəstəxanalarımız Hanı o mərtəbəli evlərimiz, həyətlərimiz. Yolları itib, çığırları ot basıb. Heç tapmadıq əzizlərimizin qəbrlərini. Dağıdılıb hamısı. "Hanı, hanı, bəs o hanı?",- deyə-deyə çox dolandıq yurdumuzu. Amma suallarımız cavabsız qaldı. Çünki bu yurd iki dəfə müharibədən çıxmışdı. Tale yazımız olmuşdu erməni ilə qonşu olmaq.







### Müharibə itkidir: həm haqlı, həm haqsız tərəf üçün

Lakin ən dəhşətlisi budur ki, müharibə hər iki tərəfin itkisidir, həm haqlının, həm haqsızın. Dünyanın harasında olursa olsun, o yerdə ki, müharibə vardır, orada nalə, imdad səsləri, uşaq çığırtıları, hər gün insan ölümü, hər gün dağıntı vardır. Bu gün rusiyalı, ukraynalı, fələstinli, israilli uşaq, gənc, qadın, kişilərin faciəsini əks etdirən mənzərələrlə qarşılaşarkən adamın ürəyi parça-parça olur.

Ana dünyanın hər yerində ana, bala hər yerində göz nuru, ürək parasıdır. Yurd dünyanın hər yerində candan əziz, ocaq dünyanın hər yerində ondan uzaqda olana təşnədir. Bomba səsi bütün insanlar üçün fəlakətdir. Dağıntılar hər bir ölkə üçün iqtisadi tənəzzüldür. Müharibə məfhumu bütün dünya xalqları üçün fəlakətlər toplusudur. Belə isə müharibələrin dəhşəti ruhuna hopmuş bir azərbaycanlı olaraq demək istəyirəm ki, kaş müharibəsiz bir dünya qura bilək

***Mətanət Məmmədova***

ŞƏRH+AKTUAL

# Ermənilər Qarabağa belə qayıdacaqlar, amma...





**Beləliklə, Azərbaycan artıq Qarabağ daxil, bütün ərazi üzərində suverenliyini təmin edib. Düzdür, Qazaxın 7 kəndi və Naxçıvanın Kərki kəndi məsələsi də gündəmdən çıxmayıb, lakin bu problem də həll olunmaq üzrədir. Fakt isə budur ki, prosesləri təmin edən bir çox şərtlər artıq yetişmişdi.**





Bu vaxta qədər isə qarşı tərəf, yəni Ermənistan guya özünü ”sındırmayaraq” zaman-zaman müəyyən ”şərtlər” irəli sürür, hətta bəlli proseslərlə bağlı güzəştli həlli qəbul etmirdi. Üstəlik, Ermənistan hökuməti Qarabağın erməni əhalisinin maraqlarını nəzərə alan təkliflərdən belə imtina edirdi.

Nəticə göz qabağındadır

Politoloq Zərdüşt Əlizadə mətbuata açıqlamasında xatırladıb ki, Azərbaycan Ermənistandan ərazisində saxladığı silahlıları çıxartmağı tələb edirdi: ”Çünki belə olan halda Qarabağda yenidən hər hansı hərbi əməliyyatlar olmayacaqdı. Oradakı qanunsuz silahlılar ərazidən çıxdıqdan sonra danışıqlar başlayacaqdı. Bunun nəticəsində orada yaşamaq istəyində olan ermənilər üçün də təkliflər gündəmə gələcəkdi. Amma bunların heç biri baş vermədi. Ermənistan bütün bunlara qarşı çıxdı və nəticə göz önündədir”.

### Buradan müəyyən tələşla çıxmış ermənilər də zaman etibarı ilə geri qayıdacaq

Zərdüşt Əlizadə hesab edir ki, ermənilər bir günlük antiterror tədbirlərindən sonra reallığın tamam başqa cür olduğunu nəhayət ki, anladılar. Bunun ardınca Ermənistandan Qarabağda yaşayan ermənilərə tapşırıldı ki, ərazini tərk etsinlər. ”Əslində, bu amil erməni tərəfinin mədəni siyasətin nə olduğunu anlamadığını göstərən faktdır”, - deyən politoloq Azərbaycanın suveren ərazisində özünün Konstitusiya hüquqlarını təmin etdiyini bildirib: ”Bu gün Xankəndidə və digər ərazilərdə inzibati orqanlar yerləşib. Xankəndi həmişə Azərbaycanın olub. Sadəcə olaraq, Xankəndiyə qarşı erməni iddiaları olub, Azərbaycan isə bunları rədd edib. Vaxtilə Xankəndidə Azərbaycan SSR-nin bayrağı dalğalanırdı. Buradan müəyyən tələşla çıxmış ermənilər də zaman etibarı ilə geri qayıdacaq. Çıxıb getmiş ermənilərin buradakı əmlakı qorunur. Zaman getdikcə, ermənilər hissə-hissə geri qayıdacaq. Kimsə gəlib burada evini satıb gedə də bilər. Amma qalanlar çox olacaq”.

### Erməni deputatı: ”Söhbət 100 milyard dollarlıq təzminatdan gedir”

Bu arada Ermənistan parlamentinin ”Hayastan” fraksiyasının təmsilçisi Armen Rustamyan ölkəsinin mediasına verdiyi müsahibəsində iddia edib ki, ilin sonuna qədər sülh sazişi imzalana bilər, lakin bu, sülh xarakterli olmayacaq.

O digər iddiasında qeyd edib ki, Azərbaycan Ermənistandan yeni güzəştlər, xüsusən də, Bakının şərtləri ilə sərhədin delimitasiyası və demarkasiyası, Azərbaycan SSR-in Ermənistan ərazisindəki anklavlarının verilməsini tələb edəcək: ”Anklavların verilməsi Ermənistan tərəfinin strateji əhəmiyyətli yollara nəzarət etməsini məhdudlaşdıracaq. İrəvanın bu marşrut üzərində nəzarət səviyyəsinin aşağı salınması ilə Naxçıvan muxtariyyəti ilə quru əlaqəsinin təmin edilməsi, Qarabağ münaqişəsi başlamazdan əvvəl respublikada yaşayan azərbaycanlıların Ermənistana qaytarılması da tələb ediləcək”.

Onun sözlərinə görə, bundan əlavə, Bakı İrəvanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasından Ermənistanı işğalçı kimi qələmə vermək və təzminat məsələsini gündəmə gətirmək üçün əsas kimi istifadə edə bilər. ”Söhbət 100 milyard dollarlıq təzminatdan gedir”, - deyə erməni fraksiyaçı bildirib.

*Afət Tahirqızı*



Mətanət MƏMMƏDOVA

# Ya qismət...

**Vallah, indi rayondan gözəl yer yoxdur. Çünki ta oralarda adam qalmayıb, hamısı yığışıb gəlib Bakıya. Oralar da qalıb barmaqla sayılacaq adamlara. Onlar da rayonlarda demək olar ki, kef edirlər. Heyif deyil oralar? Səhər qalxıb işə gedirsən, nə marşrut lazımdı, nə metro. Nə də ki, əsas məsələ-pul... Durub düşürsən yola, 5-10 dəqiqəyə mənzil başındasan, vəssalam. Və yaxud da ki, rayon, şəhər mərkəzinə getmək fikrindəsənsə, marşrutlar Bakıda gördüyümüz marşrutlar qədər sıx olmur. Yəni ayaq üstündə getməli olsan da, sıxılmadan, əzilmədən, tərləmədən, aşağıya enəndə isə çərləmədən mənzilbaşına çata bilirsən. Ən əsası isə vaxtın özünə qalır. Nə səhər sübhün gözündən durub özünü marşruta yetirməli, nə də işdən çıxanda 2-3 saatdan sonra evə çatmalı olursan. Vaxtlı-vaxtında, yerli-yerində...**

Bir atalar misalı var ey, ”yel əsib, qoz tökülüb”. Bu misalı özünə şüar edənlərin hamısı indi Bakıdadır. Kəndlərimizdə bağlı-bağçalı ev-eşiyini atanlar da, işini-gücünü buraxıb qaçanlar da, gözəl, sakit və rahat yaşayışına ”yox” deyənlər də, hamısı Bakıdadır. Gəliblər, niyə gəliblər, ”kənddə nə var axı?”,-deyə gəliblər. Kənddə mal-qara saxlamaq onlara çətin gəlib. Gəliblər ki, burada rahat bir iş tapıb asanlıqla çörək pulu qazansınlar. ”Əşi nə qədər torpaqla əlləşmək olar?”,- deyib qaçıblar Bakıya ki, burada yel əsib işi töküb küçələrə, birini də onlar götürüb çörək puluna çevirsinlər. ”Əşi nə qədər ağacın altının meyvəsini yığmaq olar, nə qədər qoz, badam, fındıq çırpmaq, yığmaq, qabıqdan çıxarmaq, sərmək, qurutmaq, kisələrə doldurmaq, bazara aparmaq, satmaq olar? Gedək Bakıda gün görək”,- deyib gəliblər Bakıya. ”Nə qədər heyvan sağmaq olar, südü pendirə, şora, qaymağa, qatığa çevirmək olar, axı bitdik, tükəndik. Belə də iş olar, düşmüşük. Bu dünyada heç bir gün görmədik”,- deyib gəliblər Bakıya gün görməyə.

Bakıda da gün görmələri bu olub ki, şəhər mərkəzindən kilometrlərlə kənarda, haradasa 2-3 saatlıq məsafədə şəraitsiz evlərdə kirayədə yaşamalı olublar, hansı ki, kənddə xan sarayı kimi evlərinə qıfıl asıb gəliblər. İşləri də belədir ki, yaşadıqları ərazidən yenə də kilometrlərlə uzaqda olan bir işdir. Günlərinin yarısı yollarda keçir, əllərinə də rayonda aylıq qazanclarının dörddə biri gəlir, ya gəlmir.

Bu da Bakı. Arzuların, istəklərin Bakısı. Sən evini-eşiyini qoy, gəl, burada nə evin-eşiyin, nə düz-əməlli bir işin olsun. Rayonlarda o gözəllikdə ev-eşiyin boş qalsın, o qədər qazancın əlindən çıxsın. Gəl, burada səhərin sübhündən qalx ayağa ki, işə çatasan.

Elə bu səbəblərdən də Bakıda yerin altında da, üstündə də sıxlıqdan ürək partlayır. Məsələn, işdən, dərsdən yorğun-arğın çıxmısan, deyirsən bir az hava alım, elə yaxınlıqdakı dayanacaqdan marşrut avtobusla üz tutum evə. Dayanacağa çatırsan, baxıb görürsən ki, İlahi, bütün şəhər buradadır ki... Avtobuslar dayanır, insanlar özlərini bir təhər ki, ona yetirir, qapılar bağlanır, yola düşür. Məcburən ikincini gözləməli olursan. Gözlə ki, gözləyəsən, ay gəldi ay... Yaxşı, bir xeyli vaxtdan sonra yenə də gözlədiyin o nömrəni avtobusun üzərində görəndə sevincdən az qalır ürəyin partlasın ki, şükür Allah, gəldi. Gedirəm. Bu dəfə fərasətin varsa, gedəcəksən, yoxsa, ta özündən küs. Bu qalır sənin tərpənişinə. Özünü bir təhər irəliyə ata bildinsə, ayağını avtobusun pilləkəninə qoya bildinsə, deməli, getdin. İçəridə səni əzib suyunu çıxarsalar da, uzun yolu iki yox, bir ayağının üzərində durmalı olsan da, getdin. Yerə enəndə axşamın küləyi səni nə günə salacaq, onu da ki, Allahdan başqa heç kim bilmir. Sabah qalxıb işə gedə biləcəksənmi, bunu da Allahdan başqa heç kim bilə bilməz.

Yaxşı, bu yerin üstü, vəziyyəti bildik. Yerin altına enənlərdən danışaq bir az da. Metrodasan, dayanmısan ki, qatar gələr, səni aparar evinə. Gəlir, niyə gəlməsin ki, gəlməyinə gəlir. Sənə o qatarda yer varmı, bax, məsələ budur. Nə qədər edirsən, qatara minə bilmirsən. Qatar gedir, sən qalırsan. Deyirsən əşi, ikinci gəlsin, nə etməli, bu şəhər belədir də. İkinci gəlir, bu dəfə özünü qabağa verirsən ki, yox ey, mən səhərdən burada dayanmışam, birinci özüm minəcəyəm. Çox təəssüf. Qatardan düşənlər sənə elə bir təkan verirlər ki, üç metr kənara çəkilməli olursan. Bir də baxıb görürsən ki, bu qatar da sənsiz getdi.

Əlac nədir, gözləməlisən. Telefonun da susmur. Evdə səndən nigaran olanlar zəngdir ki, vururlar. Sən də deyirsən ki, vallah, metrodayam. İnanıb-inanmamaq ta qalır onlara. ”İnşallah üçüncü qatarla gedərəm”, -deyib başlayırsan gözləməyə. Başqa əlac yoxdur ki, gözləməkdən savayı. Gözlə, amma dəmə ki, bu dəfə gedəcəyəm ta. Dayanmadan-durmadan inşallah, ya qismət də ki, bəlkə getmək sənə də nəsib ola. İnşallah, qatara minə bilmək hər kəsə nəsib olsun, AMİN!

# Gəlin, bir az da kişilərdən danışaq...



**Kişilik, mövcud cəmiyyətə və dövrə görə dəyişə bilən sosial anlayışdır. Kişi olmaq normativ reallıq kimi qəbul edilib. Adətən, gender tədqiqatları da, əsasən, qadınlara və onların cəmiyyətdəki mövqeyinə yönəldilir, kişilərin vəziyyəti, problemləri və ya yaratdıqları problemlər unudulur.**

Bir çox hallarda zorakılıq və kişilik arasındakı əlaqə zorakılığın kişiliyin sübutu kimi qələmə verilir. Kişilik ideologiyasının zəifləyəcəyi və ya hegemon xarakterini itirəcəyi qorxusu zorakılığa adət etdirir. Kişilər öz gücünü sübut etmək üçün zorakılığı bir vasitə kimi görür.

Kişilik uzun illər sosial araşdırmalarda araşdırılmayan, ictimai mövzularda toxunulmayan, müzakirə edilməyən qavram olub. Gender tədqiqatları daha çox qadınlar üzərində cəmlənir, halbuki gender bərabərliyi və haqları hər iki cinsin üzərində eyni dərəcədə təmin edilməlidir. Buna səbəb qadınların tarixən cəmiyyətdə "qurban" mövqeyində olması kişiləri istər-istəməz zorakılıq göstərən tərəf kimi qələmə verir.

Qadın problemlərinin aktuallığı da genderlə bağlı araşdırmaların daha çox qadınlara yönəlməsinə səbəb olur. Bu səbəbdən də ölkəmizdə bu günə qədər kişilərə dair əsaslı araşdırma yoxdur. Bunda hegemon kişiliyin özünün müzakirə edilməsini istəməməsinin də rol oynadığı düşünülür. Çünki kişilik həm də gündəlik həyatımızda həmişə güclü, əyilməz simaları təcəssüm etdirir, onların zorakılığa məruz qalması, haqlarının pozulması kimi vəziyyətləri etiraf etmələri asan deyil.

Tarixi prizmadan qiymətləndirildikdə kişilər "əsl kişi" sayılmaq üçün bir çox hallarda həyatlarını riskə atmaq bahasına kişiliyini sübut etməyə çalışıblar və bu baxımdan "kişilik nədir?", "kimə kişi deyirlər?" kimi suallar həmişə gündəmdə olub.

Kişilik konsepsiyasına aydın və dəqiq tərif vermək çox çətindir. Çünki kişilik anlayışı ön plana çıxdıqda, bu, kişilərin "təbii" vərdişləri və davranış nümunələri ilə bağlı olur. Bəzi kişilər zorakılığı əsl kişilik hesab edir, bəzi kişilər ədaləti, bəziləri isə anlayışı. Ümumilikdə kişilik anlayışı hər fərddə fərqli assosiasiya yaratsa da, nəticədə bütün



kişilər üçün əsl kişi olmağın yolu eyni yerdən keçir.

Ümumiyyətlə, gender anlayışı təkcə qadınların yox, həm də kişilərin haqlarının müdafiəsi, bərabərliyinin təminatı deməkdir. Bəzən onlar da döyülür, söyülür, təhqir edilir.



Bu ilin ilk 6 ayı ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "860 Dəstək Xətti"nə məişət zorakılığına məruz qalan 34 kişi müraciət edib. "Dəstək Xətti"nə müraciət edən qadınların sayı isə 112 olub. Müraciətlərin 23,3%-i



kişilər, 76,7%-i isə qadınlar tərəfindən edilib.

Kişilərə qarşı zorakılıq kişilərə və ya oğlan uşaqlarına qarşı edilən zorakılıqdır. Ümumiyyətlə, kişilər tez-tez həm zorakılığın qurbanı, həm də zorakılığı tətbiq edən rolunda olurlar. Kişilərə qarşı cinsi zorakılığa əksər cəmiyyətlərdə qadınlara qarşı zorakılıqdan fərqli yanaşılır və beynəlxalq hüquq tərəfindən böyük ölçüdə tanınmır. Lakin kişilərin qadınlar tərəfindən fiziki və psixoloji zorakılığa məruz qalması qəbul edilir. Kişilərə qarşı zorakılıq həm kişilər, həm də qadınlar tərəfindən törədilsə də, ABŞ Ədliyyə Statistikası Bürosunun məlumatlarına görə, kişilərin kişiləri öldürdüyü qətllər ümumi qətllərin 65,3%-ni təşkil edir.

Adətən, kişilər ailədə zorakılıq gördüyünü etiraf etmirlər, çünki bu, ətrafın stiqmasına səbəb olur. Amma bəzən də olur ki, bəzi kişilər artıq ətrafda hər kəs bildiyi üçün həyat yoldaşı tərəfindən döyüldüyünü etiraf edir. Əksər vaxtlarda kişilər potensial zorakılıq tətbiq edən hesab edilir. Bunu biz qadınlar əsasən, bioloji olaraq daha güclü olmaları ilə yozuruq. Bəzi hallarda kişilər ailədə daha çox "rəis"lik etmək və hər şeyi öz nəzarəti altına almaq istədikləri üçün zorakılıq tətbiq edirlər. Bəzi hallarda isə qazdıqları quyuya özləri düşürlər. Yəni onların hegemonluq istəyi özlərinin zorakılığa məruz qalmasına yol açır. Kişinin "rəis"liyindən, davranışlarından bəzən qadın da ona eynilə davranır.

Başqa səbəblər də var, maddi vəziyyətin zəif olması, psixoloji və-



ziyyət, həyatından narazı olması və s. Bizim cəmiyyətdə əvvəllər kişinin zorakılığa məruz qalması nadir müşahidə edilsə də, artıq sıradan, adi bir haldır. Düzdür, onlar qadınlar kimi döyülmür, işgəncəyə məruz qalmır, daha çox mənəvi zora-



kılığa məruz qalırlar. Amma zorakılıq elə zorakılıqdır, fiziki, mənəvi, psixoloji, iqtisadi - hansı cür olursa olsun. Zorakılığa məruz qalan da, zorakılığı tətbiq edən də kim olursa-olsun, hansı cinsdən olursa-olsun, qınanılmalı, stiqmaya məruz qoyulmalıdır.

Kişi hökmranlığının qadınlarla yanaşı kişilərə də zərər verdiyi və onların bədbəxt olmasına səbəb olduğu aydındır. Kişilər bunu etiraf etmək istəməsələr də, əslində, fərqindədirlər ki, cəmiyyətdə kişiliyin hökmranlığı onlara baha başa gəlir. Həmişə güclü görünmək iddiası, hər şeyi öhdələrinə çəkmələri, hər işi əllərində cəmləmələri, bir sözlə, "rəislik" iddiaları onları yorur. Əslində, kişilər özü də qadınlara yaşatdıqları zorakılığın heç də doğru olmadığını daxilən hiss edirlər, lakin ətrafın kişilik standartları və stiqması onları bu yola itələyir. Kişilər dəyişmək üçün əzm etməlidir.

***Lalə Mehralı***



**İLHAM**

# Niyə bizdə o əjdahadan olmasın ki?

***Hərdən öz-özümə giley-güzar edirəm ki, ataların da çox qəribə, maraqlı deyimləri, aforizmləri var. Misal üçün, "ac toyuq yuxusunda darı görər". Əslində, bu məsəlin məğzi, mənası heç də anlaşılan deyil. Ona görə ki, birincisi, toyuq o dərəcə də dərin yuxuya getmir, ikincisi isə, onun yuxuda darı görə biləcəyi inandırıcı deyil. Nədən ki, o nə hisslərini, nə də arzularını anlada bilmir. Sadəcə, mənim gəldiyim qənaət ondan ibarətdir ki, müdrik el ağsaqqalları ac-yalavac, bir qarın çörəyə həsrət qalan insanların xəyallarından keçirdiklərini toyuq-cücənin adı ilə şifahi xalq ədəbiyyatına yazdırıblar. Bizlər və sizlər, ümumilikdə kaş maşınım, evim olaydı, kaş banklara borcum olmayaydı, obyektim, yaxşı pulum-param olaydı, kaş    və bu kaşları deyənə rişxənd edən bir para ağzıgöyçək "ac toyuq yuxusunda darı görər" məsəlini şaqrak gülüşləri ilə dönə-dönə səsləndirib, onu lağa qoyur.***

Biçarə kaş  ların müəllifi ağzına su alıb susur, şaqrak gülüşü ilə sifətinin qırmızılığı daha qabarıq şəkildə özünü göstərən kefi şəxsə cavab verə bilmir. Sadəcə, dərindən yanıqlı ah çəkib, gedir işinin gücünün dalınca. Kefi kök insanlardan söz düşmüşkən, yadıma pullu-paralı bir ovuc insanın harın, əndazəni aşan hərəkətləri və əməlləri düşdü. Onları sizlərlə bölüşüb, yormaq fikrindən uzağam. Zatən onları və əməllərini hər kəs bilir. Bəzən qırmızı sifətli və alyanaqlı insanların əndazəni aşan əməlləri haqqında elə xəbərlər eşidirik ki, bir növ adamın damarında qanı donur. Söhbət kimlərdən və nədən gedir? Birincisi, səthi araşdırmalarımla aydınlaşdırmışam ki, son 10 il ərzində 132 icra başçısı, nazir, (hamısı ekslərdir) deputat və digər imkanlı kateqoriyadan olan qırmızı sifət, alyanaqlı məmur və onların övladları xaricə köçüb, orada özlərinə biznes qurublar. İkincisi, adama deyən lazımdır, cəhənnəmə, yığmısan, talamısan, haramın olsun, lakin olmazmı Azərbaycanda "qazandığın" o vəsaiti ölkəmizin şəhər və kəndlərində iş yerləri yaradasan? Sənə nə mane olur ki, əldə etdiyin maliyyəni uzaq xarici ölkələrin iqtisadiyyatına yatırırsan? Qarabağımız artıq azadlığına qovuşub. Yeni iş yerlərinin, obyektlərin, fabriklərin, zavodların tikilməsinə, istirahət parklarının açılmasına və qurulmasına zərurət var. Niyə Qarabağın zəruri hesab olunan sahələrinə yatırımlar etmirsiniz?

Təbii ki, düşünürsünüz ki, milyonlara sahib olduğunuzu Azərbaycan insanları da bilər və sizləri qınayar. Lakin cəmiyyət onsuz da kimin rüşvətxor, hansı ölkədə nə işlə məşğul olduğunu və kimin xalq və dövlət üçün çalışdığını bilir. Ona görə də, cidanı çuvalda gizlətmək mümkünsüzdür. Əgər həmin maliyyə vəsaitləri Azərbaycan iqtisadiyyatına qoyulsa, həm yeni şirkətlər açılar, fabrik və zavodlar yaradılar, həm də bundan minlərlə insan iş yeri qazanar. O gün saytların birindən oxuyuram ki, keçmiş mədəniyyət naziri Əbülfəs Qarayev Moskvada özünə şirkət açıb və balıq, ilan, qurbağa xərçəngkimilər və molyusklar da daxil olmaqla digər ərzaq məhsullarının topdan satışını həyata keçirəcək. Xeyirli və uğurlu olsun, lakin olmazdımı həmin şirkət Bakıda yaradılsın və həmin ilanı, qurbağanı və molyuskları Xəzər dənizi sahillərində yetişdirib, Çinə, Yaponiyaya və digər Asiya ölkələrinə ixrac edilsin? Təbii ki, olardı. Bu halda insanlar göllməçələrdən, çay kənarlarından ilanı, qurbağanı tutub Əbülfəz müəllimə satardılar və pul qazanardılar. Eyni zamanda, Əbülfəs Qarayevin şirkətində bir xeyli ilan tutan, qurbağa saxlayan, molyuska bəsləyən insan yetişərdi. Bununla həm ixtisaslı kadrlar yetişərdi, həm də iş yerləri yaranardı. "Beyin oğurlaması" filmində deyilir ey, "Niyə o əjdahadan biz də yoxdur ki?". Sinəmizə döyüb sosial şəbəkələrdə yazardıq ki, bəli, bizdə əjdaha olmasa da, nəhayət, dəniz məhsulları yetişdirən və onları xarici bazarlara ixrac edən şirkət var. Şirkət yazdım, yadıma bu günlər fəaliyyəti dayandırılan "Muğan" Bankın bağlanması düşdü. Deməli, bankın sahibi keçmiş deputat, "Odlar yurdu" universitetinin rektoru, bir neçə ölkənin professoru, Azərbaycanda və xarici dövlətlərdə çoxsaylı obyektlərin mülkiyyətçisi, nəhayət, "Oksigen" klinikasının sahibi Əhməd Vəliyevin imiş. Açığı təəccüblənmədim. Ona görə ki, əslində, bank kimin olmalıdır ki? Əlbəttə ki, Əhməd Vəliyev kimilərin. Əgər o sahibkardırsa, müəllimdirsə, niyə də ki, bankir adı ilə şərəflənməsin? Hətta bir vətəndaş olaraq Mərkəzi Bankın İdarə Heyətinin "Muğan Bank" ASC-nin lisenziyasının 19 oktyabr 2023-cü il tarixindən etibarən ləğv edilməsi qərarından narazı qaldım. Ən azı ona görə ki, sahibkar-müəllim bir qədər müflisləşəcək və bu da onun sağlamlığına, yaşam tərzinə mənfi təsir göstərəcək. Digər tərəfdən, bankın bağlanmasından "Odlar yurdu" universitet müəllim kollektivi də əziyyət çəkəcəklər. Nədə olmasa müəllim kollektivi öz vəsaitlərini bu bankda gizlədirdilər. Artıq gizlinlər aşkar olunacaq və müəllim tayfası zərər çəkəcək. İndi çarə qalır məhkəməyə müraciət etməyə. Lakin müəllim-sahibkar məhkəməyə müraciət edəcək ya yox, onu təbii ki, zaman göstərəcək.

# Təbii resurslara necə qənaət etməli?

## Dünya alternativ enerji imkanlarından istifadə etməsə təbii ehtiyatların tükənmə təhlükəsi var

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Dünya əhalisinin sürətlə artması və dünya sərvətlərindən istifadə neft və qaz ehtiyatlarının, həmçinin içməli su ehtiyatlarının sürətlə tükənməsinin əsas səbəblərindəndir. Təbii ehtiyatların getdikcə azalması yeni enerji mənbələrinə ehtiyacın yaranmasına səbəb olur. Ona görə də təbii enerji mənbələri, içməli su ehtiyatları tamamilə tükənməzdən əvvəl mövcud ehtiyacları ödəmək üçün yeni enerji mənbələrinin tapılması və bu ehtiyatların davamlı olmasını təmin etmək çox vacibdir. Alternativ enerji mənbələri təbii ehtiyatlara qənaət edə biləcək yeni enerji növləridir.***



### Tükənən və tükənməyən enerji nədir?

Əslində, enerjinin nə olduğu haqqında çox geniş və əhatəli danışa bilərik. Fizikada enerji qısaca "sistemin iş görmək qabiliyyəti" kimi ifadə edilir. Enerjinin bir çox növləri var, məsələn, potensial enerji, kinetik enerji, istilik enerjisi, maqnit enerjisi və s. Kainatımızdakı resurslara nəzər saldıqda, enerji resurslarını tükənən və tükənməz resurslara ayıra bilərik. Tükənməyən ehtiyatlar tükənən ehtiyatlara alternativ olaraq yarandığından onlara alternativ enerji resursları deyilir. Tükənən ehtiyatlar istifadə olunduqca özünü yeniləyə bilməyən resurslardır.

Bu gün dünyamızda istifadə etdiyimiz bütün təbii enerji resursları tükənməkdə olan ehtiyatlardır. Bunları neft, kömür, təbii qaz və bir çox fərqli təbii ehtiyatlar kimi sadalaya bilərik. Bunun xaricində parçalanma yolu ilə enerji istehsalında istifadə etdiyimiz uran və torium kimi elementlər də tükənən ehtiyatlardır. İqtisadi hesablamalara görə, 20-ci əsrdə istifadə etdiyimiz enerjinin ən azı 15 qatı 21-ci əsrdə istifadə olunacaq. Bu, hazırda aşkar edilmiş qalıq ehtiyatlarımızın ən azı 80%-dən istifadə etmək deməkdir. Tükənməz və ya alternativ enerjinin əhəmiyyəti bu nöqtədə ortaya çıxır.

Alternativ enerjiləri ekoloji cəhətdən təmiz adlandırsaq da, belə elektrik stansiyalarının tikintisinə diqqət yetirilməzsə, ətraf mühitə ciddi ziyan vura bilər. Ətraf mühitə vurduğu ziyan baxımından qiymətləndirdiyimiz zaman ən təmiz enerjinin günəş və külək enerjisi olduğunu görürük. Artıq alternativ enerji istehsalına sərmayə qoyan ölkələrdə ən çox sərmayənin bu 2 enerji mənbəyinə yatırıldığını görə bilərik. Bu qaçılmaz bir həqiqətdir ki, ən azı indiyə qədər dünyamızın yaşana bilən planet olmasının qarşısını almaq və enerji etibarlılığımızı qorumaq baxımından yeganə həll yolu alternativ enerjiyə müraciət etməkdir.

### Alternativ enerji mənbələrinin əhəmiyyəti

Alternativ enerji mənbələri təbii ehtiyatlardan istifadə edilmədən istehsal olunan enerji mənbələridir. Bu xüsusiyyət alternativ enerji mənbələrini daha davamlı edir. Bu cür enerji təminatı olarsa təbii qaz, kömür və neft kimi enerji resursları tükənməyəcək. Alternativ enerji mənbələri bərpa olunandır və ətraf mühitə daha az zərər verir. Bərpa olunan enerji günəş, külək kimi sonsuz enerji mənbələrindən istifadə edilərək əldə edilir.



Dünya ölkələri bəyan edirlər ki, enerji təchizatında bərpa olunan enerjinin payı, xüsusilə iqlim dəyişikliyi ilə mübarizədə qalib gəlmək üçün yaxın illərdə kəskin şəkildə artmalıdır. Bu səbəbdən enerjinin əldə edildiyi yeraltı sərvətlər tükənməsə belə, daha dayanıqlı enerjilərə keçidin sürətləndirilməsi ətraf mühit və gələcək üçün çox vacibdir.

### Alternativ enerji növləri

Alternativ enerji davamlı enerji kimi də tanınır. Bu enerji təbii resurslara alternativdir. Təbii ehtiyatlar gələcəkdə tükənəcəyi üçün dayanıqlı enerjilərin müəyyən dövrü olmalıdır və tükənməməlidir. Günəş və ya külək enerjisi alternativ enerji mənbələridir. Davamlı enerji tükənməzdir və dünya əhalisini daha uzun müddət enerji ilə təmin edə bilən mənbələrdən əldə edilir. Alternativ enerjiyə gəlincə, onun müxtəlif növləri var. Alternativ enerjinin ən çox istifadə edilən formaları günəş və küləkdir. Bundan başqa, hidroelektrik, biokütlə və nüvə enerjisi də var.



Günəş enerjisi, qeyd etdiyimiz kimi, ən çox istifadə edilən alternativ enerji növüdür. Ən bəsit forması, günəş panellərinin günəş işığını enerjiyə çevirməsi və onu özündə saxlamasıdır, həmçinin özündə topladığı enerjini elektrik şəbəkəsinə ötürür.

Alternativ enerjinin ikinci növü külək enerjisidir. Bu prosesdə kinetik enerji, külək turbinlərindən istifadə edərək elektrik enerjisi kimi istifadə edilə bilən enerjiyə çevrilir. Külək enerjisinin CO2 emissiyaları da "boz" elektrik enerjisindən 50 dəfə azdır və buna görə də daha davamlıdır.

Alternativ enerji olaraq, hazırda dünyada hidroenergetika enerji ehtiyacımızın kiçik bir hissəsini ödəyir. Bənddən axan su şırnağının altında quraşdırılmış qurğu vasitəsi ilə sudan enerji almağın üstünlüyü ondan ibarətdir ki, bu enerjinin əldə edilməsi zamanı təbiətə heç bir zərərli maddələr buraxılmır.

Biokütlə hər kəs tərəfindən alternativ enerji forması kimi qəbul edilmir. Bu metodun davamlılığı bəzən şübhə doğurur, çünki biokütlədən enerji əldə edilərkən müxtəlif materiallar yandırılır, mayalanır və qaza çevrilir. Məsələn, heyvanların peyinindən biokütlə kimi istifadə edib yanacaq əldə edilir, lakin istehsal prosesində təbiətə buraxılan qazın zərərli olma ehtimalları da düşünülür. Bununla belə, Hollandiya kimi bəzi ölkələrdə davamlı enerji istehsalının böyük hissəsi biokütlədən əldə edilir.

Ən çox müzakirə edilən alternativ enerji növlərindən biri də nüvə enerjisidir. Bu, getdikcə daha səmərəli hala gələn ucuz bir enerji növüdür. Bu, nüvə enerjisinin yaradılması prosesində yaranan nüvə tullantılarının emalı üçün də vacibdir. Dolayısı ilə təbiətə atılaraq ətrafın ekoloji çirklənməyə məruz qalması yerinə o tullantılardan səmərəli istifadə deməkdir.



Alternativ enerji növlərindən biri də geotermal enerjidir. Geotermal enerji yerin dərinliklərində tapılan istilikdir. O, yerin nüvəsinin istiliyindən əmələ gəldiyi üçün, dərinlik artdıqca temperatur da artır. Geotermal istilik çox etibarlı alternativ enerji mənbəyidir, çünki istilik hava şəraitindən asılı deyil. Geniş miqyasda hasil etmək asandır və karbon emissiyaları olmadığı üçün davamlıdır. Bu xüsusiyyətlər geotermal enerjini təbii qaza nisbətən daha dayanıqlı alternativ edir.

### Alternativ enerji mənbəsindən istifadə nümunələri

Alternativ enerji təbii qaz, kömür və neftdən əldə edilən ənənəvi enerjidən fərqli olaraq, mədən yanacaqlarından istifadə edilmədən istehsal olunan enerji olduğundan, ətraf mühitə daha az zərər verir. Buna görə də alternativ enerji həm də yaşıl enerji və ya davamlı enerji adlanır. Xüsusilə, qlobal istiləşmə və biomüxtəlifliyin azalması kimi risklərin artması səbəbindən alternativ enerji mənbələri günü-gündən daha çox əhəmiyyət kəsb edir. Bu səbəbdən dünyada alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində müxtəlif təşəbbüslər var.

Məsələn, elektriklə işləyən avtomobillərin istehsalının artırılması və geniş tətbiqi neftdən asılılığın qarşısını almaq və karbon emissiyasını azaltmaq üçün çox faydalıdır. Bu gün karbon emissiyası alimlərin həll etməyə çalışdığı vacib bir problemdir. Karbon emissiyası atmosferə atılan karbon dioksid (CO2) qazıdır. Təbii olaraq tonlarla karbon dioksid atmosferə atılır. Təbii karbon emissiyalarının ən böyük mənbəyi okeanlar və atmosfer arasındakı karbon dioksid mübadiləsidir. İnsanlar, heyvanlar və bitkilər tənəffüs prosesi zamanı karbon dioksid yayırlar. Bunlarla yanaşı, təbiətdə ölən heyvanlar və bitkilər torpaqla qarışarkən, yenidən karbon qazı atmosferə qarışır.

Günəş enerjisi ilə işləyən dam panelləri də alternativ enerji mənbələrindən istifadənin yaxşı nümunəsidir. Bu panellər sayəsində həm fabrik-zavod kimi istehsal müəssisələri, həm də ev təsərrüfatları istilik və elektrik kimi əsas ehtiyaclarını rahatlıqla qarşılaya bilir. Yerləşdiyi yer sayəsində ölkəmiz günəş və külək enerjisindən istifadə üçün çox əlverişlidir. "Küləklər şəhəri" deyə xarakterizə edilən Bakıda küləkdən əldə edilən enerji olduqca böyük paya sahib ola bilər. Ölkəmizin artan əhalisi ilə birlikdə istehlakı artan enerji tələbatının təbiətə zərər vermədən daha qənaətli şəkildə əldə edilməsi daha məqsədəuyğun olardı.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
21 oktyabr
2023-cü il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Peşəkar idmançılar necə qidalanmalıdır?

*MÜTƏXƏSSİS AÇIQLADI*



“Peşəkar idmançılar hər dövr üçün yaxşı və sağlam qidalanmalıdır”. Bu sözləri SİA-ya açıqlamasında Təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.Onun sözlərinə görə, yarış və məşq əvvəli yeyilən yeməyin miqdarı, tərkibi və vaxtı çox vacibdir: ”İdmançının qidalanma zamanı düzgün qida seçimi onun performansını artırdığı kimi, yanlış qida seçimi isə bunu aşağı salır.

İdmançıların istifadə etdikləri başlıca qidalardan biri də proteinli qidalardır və protein əlavələridir. Protein əzələ, orqan və sümüklərin qurluşuna, bərpasına kömək edir və sağlam qidalanmanın əsas qida maddəsidir. İdmanla məşğul olmayan fərdlərdə gündəlik protein ehtiyacı hər kq çəkiyə görə 0.8 qramdır. İdmançılarda isə protein ehtiyacı cinsə, yaşa, idmanın növünə, ağrılığına və müddətinə görə dəyişsə də, gündəlik hər kq üçün 1,2-2 qram arasında dəyişir”.

Asim Vəliyev sözlərinə belə davam edib: ”Proteinlər sağlam və düzgün qidalanma üçün vacib şərt olsa da, idmançılar üçün uzun müddət yüksək protein qəbulu sağlamlıq baxımından problemlərə gətirib çıxara bilir. Böyrəklər proteinləri təşkil edən aminturşularında olan nitrogenin artığını və protein metobolizması tullantılarını orqanizmdən xaric etmək üçün daha çox çalışır. Sağlam fərddə yüksək miqdarda protein qəbul etmək böyrək zədələnməsinə səbəb ola bilir. Böyrəyində problem olan fərdlərdə isə ciddi sağlamlıq problemlərinə gətirib çıxara bilər.

Həmçinin araşdırmalar çox miqdarda zülal tərkibi çox olan qırmızı ət qəbul etməyin də xərçəng riskini artıra biləcəyini göstərir. Heyvan mənşəli proteinin çox qəbulu orqanizmdən idrarla kalsium xaric olunmasını artırır və sümük sağlamlığı pozaraq osteoporoz riskini artırır”.

***Ayşən Vəli***

# Joze Mourinyo ”Real”a qayıdır?

**İtaliyanın ”Roma” klubunun baş məşqçisi Joze Mourinyo cari mövsümün başa çatmasından sonra İspaniyaya qayıda bilər. Xarici medianın yazdığına görə, portuqaliyalı mütəxəssis Madrid ”Real”ında Karlo Ançelottini əvəz etmək üçün əsas namizədlərdən biridir.**



Ançelottinin ”kral klubu” ilə müqaviləsi 2024-cü ilin iyun ayına qədər nəzərdə tutulub. Artıq bir neçə aydır mətbuatda təcrübəli məşqçinin mövsümün sonunda Braziliya yığmasına başçılıq etmək niyyətində olduğu barədə məlumatlar yayılır.

Braziliya Futbol Federasiyası məlumatı təsdiqləsə də, tərəflər arasında hələ heç bir sənəd imzalanmayıb. İtaliyalı mütəxəssisin həmişəki kimi bütün diqqətini ”Real”dakı işinə cəmlədiyi bildirilib.

İddiaya görə, ”Real Madrid” klubunun prezidenti Florentino Peres Ançelottiyə yeni müqavilə təklif edərsə, baş məşqçi onu qəbul etməyə və komandada qalmağa hazırdır. Buna baxmayaraq, Madrid təmsilçisində məşqçi dəyişikliyi ehtimalı böyükdür. Bu vəzifəyə əsas namizəd isə Mourinyo hesab olunur.

O, 2010-2013-cü illərdə İspaniya təmsilçisinə başçılıq edib, sonra isə Ançelotti ilə əvəzlənib. İndi isə Madriddə italiyalını portuqaliyalı əvəz edə bilər. Lakin ”Roma”nın hazırkı baş məşqçisi ”Real Madrid”in ”sükan”ı arxasına yeganə namizəd deyil. Klubun iki əfsanəsinin - Zinəddin Zidan və Xabi Alonsonun namizədliyi də nəzərdən keçirilir.

# Abşeronda ”Kalaşnikov” satmaq istəyən şəxs tutulub



Abşeron rayonunda ”Kalaşnikov” avtomatı satmaq istəyən şəxs saxlanılıb. DİN-dən SİA-ya verilən məlumata görə, Abşeron Rayon Polis İdarəsinin Mehdiabad Polis Bölməsinin əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri tədbir nəticəsində üzərində qanunsuz olaraq odlu silah-sursat gəzdirən Digah qəsəbəsi sakini 1992-ci il təvəllüdlü Qasımbala Balayev saxlanılıb. Onun üzərinə baxış zamanı 1 ədəd ”Kalaşnikov” markalı avtomat, 6 ədəd patron və 1 ədəd patron darağı aşkar edilərək götürülüb. Q.Balayev silahı bir müddət əvvəl əldə etdiyini, lakin polisə təhvil verməyərək satmaq məqsədi ilə özündə saxladığını bildirib.

Faktla bağlı Polis Bölməsində toplanan material Abşeron Rayon Polis İdarəsinə göndərilib, arşadırmalar davam etdirilir.

# Noyabrda ardıcıl 5 gün iş olmayacaq



Azərbaycanda iş və istirahət günlərinin yerləri dəyişdirilib. Baş nazir Əli Əsədov bununla bağlı Qərar imzalayıb. Qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2023-cü il 10 noyabr iş günü ilə 4 noyabr istirahət gününün yerləri dəyişdirilib.

Beləliklə, noyabr ayında ardıcıl 5 gün - 8, 9, 10, 11 və 12 noyabr tarixləri qeyri-iş günü olacaq. Noyabrın 4-ü - şənbə günü isə rəsmi iş günüdür.



# ŞOK: Bu serialın təkcə bir bölümü 700 min dollara satıldı!

”Star” telekanalında yayımlanan ”Yalı çapkını” serialı rekorda imza atıb. Türkiyə mətbuatının yazdığına görə, ekran işi ”Kann mipcom sərgisi”ndə ən çox satışa imza atan ekran işi olub. Layihənin bir bölümü 700 min dollara (təxminən 1 milyon 190 min manat) satılıb. Qeyd edək ki, serialın baş rollarını Mərd Ramazan Dəmirlə Afra Saraçoğlu paylaşır.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**